QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 058 (5778) **3 aprel** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: “Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir”

*Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub*

Səh 2




**Dövlətdən KİV-lə bağlı möhtəşəm və gözlənilən qərar!**



8

**UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə dair Tədbirlər Planı təsdiqlənib**



6

**Baş nazir Novruz Məmmədov: Azərbaycan-Qazaxıstan əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial var**



6

**Ermənistanda avtobus sürücüləri və dəmiryolçular tətil edirlər**



11

**XİN: Ermənistan rəhbərliyinin son bəyanatları Vyana görüşü və onun nəticəsində qəbul edilmiş birgə bəyanata uyğun gəlmir**



6

**Aprel döyüşlərində yaralanmış hərbçilər və şəhid ailələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar**



10

6

**Mayor Zaur Məmmədov: Aprel döyüşləri ordu ilə xalqın birliyinin sarsılmazlığını bütün dünyaya göstərdi**



14

**“Azərbaycan Xalq Hərəkatı”nda təpik-yumruqlu iclas**



16

**Messi dünyada ən çox qazanan futbolçudur**



# İlham Əliyev: "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir"

*Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub*





"Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır"

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub. AZƏRTAC xəbər verir ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov, müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkov və Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-mayor Hikmət Mirzəyev Ali Baş Komandan İlham Əliyevə raport verdilər.***

Dövlətimizin başçısı əvvəlcə burada ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstəsi qoyaraq xatirəsini dərin ehtiramla yad etdi.

Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə hərbi hissədə aparılan yenidənqurma işləri barədə məlumat verdi.

Bildirildi ki, bu hərbi hissənin ərazisində qərargah binası, yeməkxana, əsgər yataqxanası yenidən qurulub, müasir təlim mərkəzləri yaradılıb. Hərbi hissənin ərazisində, eyni zamanda, burada xidmət edən ailəli hərbi qulluqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanalar inşa olunub. Dövlətimizin başçısına məlumat verildi ki, burada yeni binaların da tikintisi nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev hərbi hissənin xüsusi hazırlıq təlim meydanında xüsusi təyinatlıların döyüş hazırlığını izlədi.

Son illərdə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının, silah-sursat arsenalının müasirləşdirilməsi istiqamətində çox mühüm və tarixi işlər görülüb. Şübhəsiz ki, bütün bu uğurların əldə edilməsində, Silahlı Qüvvələrimizin müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində Azərbaycanın iqtisadi inkişafı vacib rol oynayır.

Ardı Səh. 3



## Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub

Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Azərbaycan Prezidentinin Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, Prezident İlham Əliyev və Prezident Vladimir Putin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə martın 29-da Vyanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında keçirilmiş ilk rəsmi görüşün nəticələri və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesini müzakirə ediblər.

Prezidentlər ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar prosesinin fəallaşdırılmasının əhəmiyyətini vurğulayıblar. Söhbət zamanı Azərbaycan və Rusiya arasında əməkdaşlığın müxtəlif sahələrdə bundan sonra da müvəffəqiyyətlə inkişafına əminlik ifadə olunub.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev YUNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında iştirakla əlaqədar Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev S.Ç.Hacıyevin Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Siyam Çərkəz oğlu Hacıyev Naxçıvan Muxtar Respublikasının Culfa Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

# İlham Əliyev: “Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir”

*Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub*





Əvvəli Səh. 2

Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsal yönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da möhkəmləndirib. Dövlətimizin başçısının diqqəti nəticəsində yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar açıb. Təsadüfi deyil ki, indi ölkəmizin silah-sursatları bir çox parametrlərinə görə dünyada ilk yerlərdən birini tutur.

Azərbaycanda ordu quruculuğuna dair bütün mühüm tədbirlər ardıcıl surətdə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. 2003-cü ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar bu gün milli ordumuzun dünyanın ən qüdrətli ordularının sırasına daxil olmasına imkan yaradıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bu faktı beynəlxalq hərbi tədqiqat mərkəzləri də təsdiqləyir. Şübhəsiz ki, Azərbaycan bu uğura hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olub.

> “Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər”



İndiyədək ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur. Bu hərbi texnika ilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən istənilən an düşmənə sarsıdıcı zərbə vuraraq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır. Bunu 2016-cı ildə cəbhədə baş verən hadisələr də göstərdi. Azərbaycan qoşunlarının mövqelərini dağıdıcı silahlardan, ağır artilleriyadan atəşə tutan düşmən layiqli cavabını aldı. Bu döyüşlər Azərbaycan Ordusunda yüksək mənəvi-psixoloji hazırlığın olduğunu üzə çıxardı. Aprel döyüşlərinin ən mühüm nəticəsi həm də ondan ibarət oldu ki, Ağdərənin, Cəbrayılın, Füzulinin işğaldan azad olunmuş ərazilərində Azərbaycan bayrağı dalğalandı. Mətin ordumuz 1992-ci ildən erməni silahlı birləşmələrinin işğal etdiyi Şərur rayonunun Günnüt kəndini də qəhrəmanlıqla azad etdi. Əlahiddə Ümumqoşun Ordusunun əks-həmləsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad olundu, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alındı. Bütün bu uğurlar isə Azərbaycan Ordusunun qüdrətini göstərir. Çünki ölkəmizin güvənc yeri, qürur, ləyaqət rəmzi və özünütəsdiq imkanı olan Azərbaycan Ordusu xalqımızın milli düşüncəsində ali və müqəddəs ucalıqda dayanır, dövlətimizin varlıq, mövcudluq və milli kimlik meyarı kimi çıxış edir. Xalqımızın Silahlı Qüvvələrə olan inamı isə ölkəmizin milli təhlükəsizliyinin təmin olunmasında ordunun şəxsi heyətinə böyük etimad yaradır.

Sonra Prezident İlham Əliyev hərbi qulluqçularla görüşüb. Ali Baş Komandan görüşdə çıxış edərək bildirib ki, bu gün Azərbaycan Ordusu uğurla inkişaf edir, ordu quruculuğu prosesi sürətlə gedir, bizim hərbi hissələrimiz yenidən qurulur, yenidən tikilir, ordumuz ən müasir texnika ilə təchiz edilir:

“Bu da təbiidir, çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıb. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır.

Aprel döyüşlərindən 3 il keçir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Döyüşlər zamanı itkilərimiz də olub, Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı hərbçilərimizin müalicəsi, bərpası üçün dövlət əlindən gələni əsirgəməyib və yaralanmış bütün hərbçilər xoşbəxtlikdən normal həyata qayıtdılar.

Ardı Səh. 4

# İlham Əliyev: "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir"

*Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub*

Əvvəli Səh. 3

Onların müalicəsi, bərpası, aktiv həyata qayıtmaları üçün bütün lazımi işlər görülmüşdür.

Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi. Vaxtilə işğal edilmiş torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. Döyüşlər zamanı hərbçilərimiz peşəkarlıq, qəhrəmanlıq göstərmişlər. Bir daha göstərmişlər ki, Azərbaycan əsgəri, zabiti həm peşəkardır, həm Vətənə bağlıdır, həm də istənilən anda öz vəzifə borcunu yerinə yetirməyə hazırdır. Aprel döyüşləri hərbi cəhətdən çox uğurlu əməliyyat idi. Çünki əlverişsiz mövqelərdən bizim hərbçilərimiz çox önəmli strateji yüksəklikləri işğalçılardan azad etmişlər. Eyni zamanda, bu döyüşlərin mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyəti vardır. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaradırdı ki, onlar hərbi cəhətdən bizdən üstündür. Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Ordusu bu gün ən yüksək keyfiyyətlərə malikdir və istənilən anda istənilən vəzifəni icra edə bilər. Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi.





## "Ermənistanın yaratdığı mif tamamilə darmadağın edildi"

Bizim mülki vətəndaşlarımız da döyüşlər zamanı qəhrəmanlıq göstərmişlər. Bir neçə mülki şəxs Ermənistanın təxribatı nəticəsində həlak olmuşdur, yüzlərlə ev sıradan çıxmışdır, yandırılmışdır. Biz bütün bu evləri qısa müddət ərzində bərpa etdik. Döyüşlərdən sonra getdiyim həmin o təmas xəttinə yaxın yerləşən kəndlərdə vətəndaşlarla görüş əsnasında gördüm ki, bu vətəndaşlarda nə qədər milli ruh var, bunlar nə qədər qorxmaz insanlardır, atəş altında qalaraq öz doğma evlərini, kəndlərini tərk etməmişlər.

Döyüşlər nəticəsində Cocuq Mərcanlı kəndinə yeni həyat verildi. Cocuq Mərcanlı qısa müddət ərzində yenidən quruldu, 150 fərdi ev, məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan məscid tikildi, yeni iş yerləri yaradılır. Yəni, Cocuq Mərcanlıya həyat qayıdıb. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmayacaq. Bu, bir daha onu göstərir ki, hər bir Azərbaycan vətəndaşı bir arzu ilə yaşayır - bizim işğal altındakı torpaqlarımız tezliklə azad olunsun və Azərbaycan öz ərazi bütövlüyünü bərpa etsin.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində bizim torpaqlarımız işğal altına düşmüşdür. Bunun səbəbi də odur ki, o vaxt hakimiyyətdə olan qüvvələr öz yarıtmaz fəaliyyəti ilə imkan verdilər ki, Ermənistan torpaqlarımızı zəbt etsin. AXC-Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində işğal edilmiş torpaqlarda Ermənistan silahlı qüvvələri möhkəmləndi, Ermənistanla Dağlıq Qarabağ arasında canlı bağlantı yaradıldı və düşmənə imkan verdi ki, öz işğalçılıq siyasətini davam etdirsin.

Ardı Səh. 5

# İlham Əliyev: “Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir”

*Prezident, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin N saylı hərbi hissəsində olub*



## “Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir”

Əvvəli Səh. 4

Ancaq ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyətdə dəyişiklik edildi, uğurlu Horadiz əməliyyatı aparıldı. Horadiz əməliyyatı nəticəsində 20-dən çox yaşayış məntəqəsi işğalçılardan azad edildi. Bu gün Horadiz şəhəri və həmin o kəndlər çiçəklənir, canlanır, orada ən yüksək səviyyədə işlər görülür.

Ordu quruculuğu prosesinə start verildi. Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Qeyd etdiyim kimi, sonuncu reytingə əsasən Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Ötən il keçirilmiş iki hərbi parad bizim hərbi qüdrətimizi göstərdi. Ordumuz üçün ən müasir silahlar, texnikalar alınır, ordumuzun döyüş qabiliyyəti artır. Aprel döyüşləri bunun bariz nümunəsidir. Ordumuz üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik. Ötən il uğurlu Naxçıvan əməliyyatı keçirilmişdir. Bu əməliyyat nəticəsində biz strateji yüksəkliklərə sahib olmuşuq. Bu yüksəkliklər imkan verir ki, biz çox böyük əraziyə nəzarət edək. Uğurlu Naxçıvan əməliyyatı bir daha göstərdi ki, ordumuz peşəkardır, ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir.

Bütün bunlar reallıqdır. Bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edə bilər və biz əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik. Azərbaycan Ordusu dövlətimizin ərazi bütövlüyünün qorunması işində rol oynayan əsas amildir.

Hərbçilərin məişət problemləri həll olunur. Buna da böyük diqqət göstərilir. Keçən ilin sonunda 300-dən çox hərbçiyə yeni mənzillər verildi. Bu günə qədər yüzlərlə hərbçi dövlət tərəfindən mənzillərlə təmin edilib. Bu proses davam etdirilir. Eyni zamanda, hərbi hissələrin yenidən qurulması prosesi geniş vüsət almışdır. Son illərdə bir çox hərbi hissələrin şəhərciklərinin açılışında olmuşam. Hər yerdə səviyyə yüksəkdir, şərait çox gözəldir, o cümlədən bu hərbi hissədə. Burada mənə əvvəlki illərdə olan vəziyyəti əks etdirən fotoşəkillər təqdim olundu. Əlbəttə ki, vəziyyət çox ağır idi. Ancaq mənim xüsusi tapşırığım əsasında hərbi hissə qısa müddət ərzində yenidən quruldu, burada yaxşı şərait yaradıldı. Həm burada çalışanlar, həm yataqxanalarda qalanlar üçün gözəl şərait yaradıldı. Onu da bildirməliyəm ki, bizim hərbi hissələrimizdə mülki işlərdə mülki vətəndaşlar çalışır, bu da yenilikdir. Beləliklə, biz hərbçiləri, onların fəaliyyətini əsas vəzifə borcuna yönəltmişik, eyni zamanda, 20 minə yaxın mülki şəxs işlə təmin edilmişdir.

O ki qaldı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, burada bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bu gün bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bütün mötəbər beynəlxalq təşkilatlar müvafiq qərar və qətnamələr qəbul etmişlər. Bu, tarixi və hüquqi əsasdır. Heç bir ölkə qondarma “Dağlıq Qarabağ respublikası”nı tanımayıb, əminəm ki, tanımayacaqdır.

Ona görə danışıqların davam etdirilməsinin məqsədi işğal edilmiş torpaqların azad olunmasıdır. Siz bilirsiniz ki, Ermənistanın yeni rəhbərliyi danışıqların formatını dəyişdirmək istəmişdir. Verilən bəzi bəyanatlar da ictimaiyyət üçün bəllidir. Ancaq Azərbaycanın birmənalı mövqeyi bunu mümkün etməmişdir. Münaqişə Ermənistan ilə Azərbaycan arasındadır. Bizim torpaqlarımızı Ermənistan işğal edibdir. İşğal edilmiş torpaqlarda qarşı tərəfdə hərbçilərin 80 faizi Ermənistan vətəndaşlarıdır. Ona görə danışıqlar prosesi də iki ölkə arasında aparılmalıdır və aparılır. Son Vyana görüşü, o cümlədən ona görə önəmli idi ki, bu mövcud formatı bir daha təsdiqlədi. Həm xarici işlər nazirləri arasında aparılan danışıqlar, həm də rəhbərlik arasında keçirilmiş görüş bir daha onu göstərir ki, bu, Ermənistan-Azərbaycan münaqişəsidir. Biz hər dəfə bu münaqişə ilə bağlı sözümüzü deyəndə bu münaqişəni belə də adlandırırıq: Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi.

Haqq-ədalət, tarixi həqiqət bizim tərəfimizdədir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir.

Siz - burada xidmət göstərən hərbçilər öz vəzifə borcunuzu çox yaxşı bilirsiniz, yaxşı başa düşürsünüz. Siz ən ağır döyüşlərdə iştirak etmisiniz, qəhrəmanlıq, şücaət göstərmisiniz. Dövlət sizin fəaliyyətinizi yüksək qiymətləndirir.”

* * *

Müdafiə naziri Zakir Həsənov şəxsi heyət adından ordu quruculuğuna göstərdiyi diqqətə görə Ali Baş Komandana minnətdarlığını bildirib:

- Cənab Ali Baş Komandan.

Azərbaycan Ordusunun bütün şəxsi heyəti adından Sizə dərin minnətdarlığımızı bildiririk. Orduda keçirdiyiniz islahatlar ordunun döyüş qabiliyyətinin artırılmasına, nizam-intizamın güclənməsinə və şəxsi heyətin sosial bazasının yüksək səviyyədə təşkil olunmasına yönəlib. Bu gün Azərbaycan Ordusunun bütün uğurları yalnız bu islahatlar nəticəsində mümkün olmuşdur.

Bu gün şəxsi heyət Sizin orduya göstərdiyiniz diqqət və qayğını gündəlik həyatında hiss edir və Sizin etimadınızı doğrultmaq üçün hər an hər bir əmrinizi yerinə yetirməyə hazırdır və qadirdir.

* * *

Sonra Prezident İlham Əliyevə xüsusi təyinatlıların geyim formaları, xüsusi təchizatı və ərzaq normalarının nümunələri təqdim olundu. Yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı və vətənpərvərliyi ilə seçilən Azərbaycan ordusunun hərbi qulluqçularının sosial məsələlərinin həlli, onların xidmətkeçmə və hazırlıq səviyyələrinin daha da yüksəldilməsi istiqamətində də son illərdə dövlətimiz tərəfindən mühüm addımlar atılıb.



## Baş nazir Novruz Məmmədov: Azərbaycan-Qazaxıstan əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial var



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov aprelin 2-də Qazaxıstan Respublikasının rəqəmsal inkişaf, müdafiə və aerokosmik sənaye naziri Askar Jumaqaliyev ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Qazaxıstan münasibətlərindən danışan Novruz Məmmədov dost və qardaş ölkələrimiz, xalqlarımız arasında tarixən çox yaxşı əlaqələrin mövcud olduğunu bildirib.

Təməli ulu öndər Heydər Əliyev və Qazaxıstan xalqının lideri Nursultan Nazarbayev tərəfindən qoyulan Azərbaycan-Qazaxıstan əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən Baş nazir ötən ilin noyabrında Qazaxıstanın paytaxtı Astanada MDB Hökumət Başçıları Şurasının iclasında iştirakını, keçirdiyi görüşləri məmnunluqla xatırladıb. Baş nazir bildirib ki, qarşılıqlı səfərlər, aparılan danışıqlar, imzalanan sənədlər bu gün ölkələrimiz arasında çox möhkəm əlaqələrin mövcud olduğunu sübut edir. “Hesab edirəm ki, dost və qardaş ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün yaxşı potensial var və sizin səfəriniz əməkdaşlığımızın genişləndirilməsi baxımdan xüsusi əhəmiyyət daşıyır”,- deyə Baş nazir Novruz Məmmədov vurğulayıb.

Nazir Askar Jumaqaliyev bildirib ki, müstəqilliklərini bərpa etdikdən sonra ölkələrimiz arasındakı əməkdaşlıq daha da möhkəmləndirilib və bu gün Azərbaycan-Qazaxıstan əlaqələri müxtəlif sahələrdə uğurla inkişaf etdirilir.

Görüşdə Azərbaycanın və Qazaxıstanın Çindən Avropaya qədər uzanan beynəlxalq nəqliyyat dəhlizinin imkanlarından maksimum dərəcədə faydalanmaqda maraqlı olduğu vurğulandı. Həmçinin Xəzər dənizində birgə fəaliyyətə, nəqliyyat, rabitə, müdafiə sənayesi, kosmik sənaye, İKT, o cümlədən rəqəmsallaşma sahələrində əməkdaşlığa və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## “Aprel döyüşləri Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində yeni şərtlər formalaşdırdı”



Aprel döyüşləri təkcə son Qarabağ savaşının deyil, bütövlükdə Ermənistanın Azərbaycan torpaqlarının işğalına başladığı dövrdən, yəni, 1918-ci ildən bu günədək ciddi tarixi dönüş nöqtəsidir. Bu hadisə əslində Azərbaycanın növbəti qələbələrinin başlanğıcıdır. Çünki Azərbaycan Ordusu nəzərdə tutduğumuz son 100 illik tarixdə yalnız 1993-cü ilin dekabrında Horadiz əməliyyatı zamanı nailiyyətlər əldə edib. Ondan sonrakı mərhələdə bu miqyasda qalibiyyətlə nəticələnən döyüşlər olmayıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, “Yeni Azərbaycan” qəzetinin baş redaktoru Hikmət Babaoğlu səsləndirib. Deputat qeyd edib ki, hazırkı mürəkkəb hərbi-siyasi vəziyyətdə Azərbaycan Ordusunun bu cür qələbələr əldə etməsi, heç şübhəsiz, bundan sonrakı mərhələdə Dağlıq Qarabağ münaqişəsinin həllində yeni şərtlər formalaşdırdı, yeni şərait yaratdı. Eyni zamanda, bu prosesdə hərbi-psixoloji üstünlük Azərbaycan tərəfinə keçmiş oldu.

Ötən üç il ərzində hər bir Azərbaycan vətəndaşı bu hadisənin Ermənistan cəmiyyətində nə qədər pessimist əhval-ruhiyyə, nə qədər mənəvi, hərbi, psixoloji məğlubiyyət yaratdığının şahidi oldu. Ermənistanda 2018-ci ildən başlayaraq bu günə qədər davam edən daxili “zəlzələ” də məhz Aprel döyüşlərinin yaratdığı yeni reallığın nəticəsidir. Göründüyü kimi, bu, təkcə hərbi məsələ deyil, eyni zamanda, ciddi mənəvi-psixoloji və siyasi məsələdir. Ancaq məsələ təkcə bununla da məhdudlaşmır. “Biz bilirik ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həm də beynəlxalq tərəfləri var. Bilirik ki, bu münaqişədə iştirak edən təkcə işğalçı Ermənistan deyil, Azərbaycan torpaqlarını işğal edən Ermənistanın tərəfində olan, onu gizli və ya açıq şəkildə himayə edən imperialist güc mərkəzləridir. Aprel döyüşlərindən sonra onlar da lazımi mesajlar aldılar və bir daha başa düşdülər ki, status-kvonun saxlanılması cəhdləri bu problemin həllində heç də yaxşı perspektivlər vəd etmir. Bəzi imperialist mərkəzlər onu da anladılar ki, belə davam edərsə, bir gün Azərbaycan artıq nə BMT-nin mandatı ilə fəaliyyət göstərən ATƏT-in Minsk qrupuna, nə də onun həmsədrlərinə ehtiyacı olmadan özü bu problemi həll edə bilər.

Bütün bunlar 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun əldə etdiyi qələbədən sonra mümkün olub. Başqa mühüm bir məsələ də var ki, Aprel döyüşləri mühüm bir taktiki qələbə kimi özündən cəmi iki il sonra yeni bir qələbənin - Günnüt qələbəsinin əsasını qoydu. Azərbaycan Ordusu Naxçıvan ərazisində 90-cı illərin əvvəllərində işğalçı Ermənistan tərəfindən nəzarətə götürülən torpaqlarımızı qaytarmaqla strateji yüksəkliklərdə möhkəmləndi və Yerevan-Qafan strateji yolunu nəzarətə götürdü. Artıq ermənilər bilir ki, bənzər hadisə yenə təkrarlana bilər və Azərbaycanın torpaqları işğaldan tam azad edilənə qədər bu, davam də bilər. Aprel döyüşlərinin yaratdığı başqa bir reallıq isə azad edilmiş torpaqlarımıza “Böyük qayıdışın” başlanmasının əsasının qoyulması oldu. Bu hadisə problemin həllidə yeni mərhələ yaratmaqla status-kvonun legitimləşdirilməsi cəhdlərinin mümkün olmadığını hər kəsə göstərdi.

## Azərbaycan Prezidentinin və Ermənistan baş nazirinin Vyana görüşü Almaniya KİV-lərinin diqqətində

Almaniyanın dpa informasiya agentliyi “Azərbaycan və Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllinə çalışır” adlı xəbər yayıb. Xəbərdə Azərbaycanın və Ermənistanın uzun müddətdən bəri öz həllini tapmayan münaqişənin həlli istiqamətində yeni səylər göstərdikləri vurğulanır. ATƏT-in yaydığı bəyanata istinad edilərək tərəflərin görüşünün müsbət və konstruktiv şəraitdə keçdiyi qeyd olunur. Yazıda Dağlıq Qarabağın beynəlxalq hüquqa əsasən Azərbaycanın ərazisi hesab edildiyi vurğulanır.

Almaniyanın “Deutschlandfunk” ictimai radiosunun saytında yayılan məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə Vyanada bir araya gəldikləri bildirilir. Bu yazıda da Dağlıq Qarabağın beynəlxalq hüquqa əsasən Azərbaycanın ərazisi hesab edildiyi qeyd olunur. Eyni məzmunlu məqalə “ZDF” qəzetində də dərc edilib.

## UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə dair Tədbirlər Planı təsdiqlənib



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilib. AZƏRTAC xəbər verir ki, sərəncamda Tədbirlər Planında nəzərdə tutulan işlərin yerinə yetirilməsi üçün müvafiq qurumlara tapşırıqlar verilib. Qeyd edək ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası 30 iyun-10 iyul tarixlərində keçiriləcək.

## XİN: Ermənistan rəhbərliyinin son bəyanatları Vyana görüşü və onun nəticəsində qəbul edilmiş birgə bəyanata uyğun gəlmir



Ermənistan rəhbərliyinin son bəyanatları və hərəkətləri, o cümlədən işğalçı ölkənin müdafiə nazirinin “yeni ərazilər tutmaq üçün yeni müharibə” formulunu təqdim etməsi tamamilə qəbuledilməzdir. Hesab edirik ki, bu kimi addımlar iki ölkə rəhbərləri səviyyəsində baş tutmuş Vyana görüşü və onun nəticəsində qəbul edilmiş birgə bəyanata uyğun gəlmir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı bəyanatda səslənib. Bəyanatda deyilir: “Təkrar edirik ki, bu kimi təxribatlar uzun illər ərzində aparılan danışıqlar prosesini və ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini ciddi sual altına qoyur. Vurğulamaq istərdik ki, belə təhlükəli ritorikanın mümkün mənfi nəticələrinə görə bütün məsuliyyət Ermənistan tərəfinin üzərindədir”.

## Mayor Zaur Məmmədov: Aprel döyüşləri ordu ilə xalqın birliyinin sarsılmazlığını bütün dünyaya göstərdi



Aprel döyüşləri Azərbaycan xalqının və ordusunun qürur mənbəyidir. Məhz həmin qələbə Azərbaycan Ordusunun gücünü, əsgərlərimizin döyüş əzmini və ruh yüksəkliyini ermənilərə və bütün dünyaya nümayiş etdirdi. Bunu Aprel döyüşlərinin iştirakçısı mayor Zaur Məmmədov AZƏRTAC-a açıqlamasında deyib.

Döyüşlərlə bağlı təəssüratlarını bölüşən Z.Məmmədov bildirib: “Digər hərbçilərimiz kimi, mən də Vətən eşqi və qürur hissi ilə döyüşlərə atıldım. Bu döyüşlərdə mən də yaralandım. Həmin döyüşlərdə düşmənə sarsıdıcı zərbə vuraraq torpaqlarımızın bir hissəsini azad edən Azərbaycan əsgəri Vətən qarşısında borcunu şərəflə yerinə yetirmək əzmində və gücündə olduğunu göstərdi. Qürurverici haldır ki, döyüşlərdə əsgərlərimiz mərdliklə, böyük ruh yüksəkliyi ilə döyüşdü. Bu döyüşlər ordu ilə xalqın birliyinin sarsılmazlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Düşmənlə yanaşı, bütün dünya gördü ki, xalqımız öz ordusuna inanır, ordumuz isə xalqa arxalanır”.

Aprel zəfərinin Azərbaycan Ordusunun dünyada ən qüdrətli ordulardan biri olduğunu sübut etdiyini deyən hərbçimiz vurğulayıb: “Aprel qələbəsində Azərbaycan Ordusunun uğurlu əməliyyatı Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordumuzun hərbi qüdrətinin artırılmasına göstərdiyi yüksək diqqət və qayğı, bu istiqamətdə həyata keçirdiyi islahatlar nəticəsində mümkün oldu. Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin günlərdə cəbhəboyu zonaya səfəri, şəxsi heyətlə və təmas xəttinə yaxın ərazilərdə yaşayan sakinlərlə görüşləri, eləcə də hərbi hospitalda yaralı əsgərlərə baş çəkmələri, Mehriban xanımın şəhid hərbi qulluqçuların ailələrinə göstərdiyi dəstək Silahlı Qüvvələrin bütün şəxsi heyətində daha böyük qələbələr üçün sarsılmaz inam yaratdı”.

Babasının da ermənilər tərəfindən qətlə yetirildiyini vurğulayan hərbçi bildirib: “Hələ məktəbdə oxuyarkən, “Hansı peşə sahibi olmaq istəyirsiniz?” sualına düşünmədən “Hərbçi olacağam” deyirdim. Belə də oldu. Doqquzuncu sinfi bitirdikdən sonra sənədlərimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verdim. Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə könüllü iştirak edənlərin arasında atam da var idi. Ona görə də bu yol həm də atamın tutduğu yolun davamıdır. Bu yolu seçməyimdə təsirsiz ötüşməyən həmin hadisələrin hər biri tariximizdir. Məhz tariximiz, Qarabağ həsrəti, qisas hissi və Vətənə sevgi hərbçi peşəsini seçməyimin ən böyük səbəbləridir. Mən bu peşəyə könüldən bağlanmışam. Biz hərbçilər dünyaya bir pəncərədən - səngərdən baxırıq. Həmin pəncərədən doğma Qarabağımız görünür. Səngərlərdən döyüşə başlayacağıq, vuruşacağıq və qələbə qazanacağıq”.

**Hər bir cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması müasir dövrdə ən vacib vəzifələrdən biridir. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə və dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatnın bütün sahələrini - əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər bu qəbildən olan halları əhatə edir.**



# Dövlət hər zaman vətəndaşının yanındadır

## *İlham Əliyev: "Azərbaycanda sığorta sahəsində boşluqlar var və bir çox hallarda biz bunu görürük"*

Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Bakının Nizami rayonundakı Ticarət Mərkəzində baş vermiş yanğınla əlaqədar martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə keçirilən müşavirədə dövlət başçısının vurğuladığı kimi: "Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir. Bildiyiniz kimi, bu ilin əvvəlində çox ciddi və böyük sosial paket təsdiqləndi. Sosial təşəbbüslər nəticəsində, 3 milyondan çox insan bu proqramla əhatə olunur. Deyə bilərəm ki, dünyada belə bir təşəbbüsün bənzəri yoxdur".

### AZƏRBAYCAN DÖVLƏTİNİN SİYASƏTİNİN ƏSASINDA XALQIN RİFAHININ YÜKSƏLMƏSİ DAYANIR

İqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi sayəsində milli iqtisadiyyatımız 3,3 dəfədən çox artıb ki, bu da dünya üzrə rekord göstəricidir. Son 15 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur.

Ölkəmizdə sosial sığorta sistemi daha da təkmilləşdirilir. Əmək qabiliyyətli insanların fəaliyyətlərinin reallaşdırılması üçün hər cür şərait yaradılır, dövlət təqaüdçülər, əlillər, əmək qabiliyyətindən məhrum olan digər insanlar, eləcə də, büdcədən sosial müavinətlər alanlar qarşısındakı sosial öhdəliklərini də müvəffəqiyyətlə yerinə yetirir.

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, 2019-cu il həyatımıza sosial müdafiə və sosial rifah ili kimi daxil olub. Bu addımlar planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına və hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır.

### "İNKİŞAF ETMİŞ ÖLKƏLƏRDƏ BELƏ HADİSƏLƏR BAŞ VERDİKDƏ, BURADA BÜTÜN MALİYYƏ YÜKÜNÜ SIĞORTA ŞİRKƏTLƏRİ ÖZ ÜZƏRİNƏ GÖTÜRÜR"

Azərbaycan iqtisadiyyatının ümumi dinamik inkişafı sığorta bazarının da davamlı inkişafını şərtləndirir. Ölkəmizdə "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta" haqqında və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası qanunları qüvvədədir. Təbii ki, Azərbaycanda bütün əmlakın və biznes fəaliyyətinin, hər bir insanın icbari tibbi, eləcə də, həyatı sığorta təminatı da vacib məsələlərdəndir. Hər hansı bir qəza, təbii fəlakətin - daşqın, sel, zəlzələ kimi təbii fəlakətlərin baş verməsindən heç bir dövlət sığortalanmayıb. Elə bu yaxınlarda Şamaxı, Ağsu və İsmayıllı rayonlarında zəlzələ baş verdi və bu təbii fəlakətlərin qarşısını almaq mümkün olmadı. Əlbəttə ki, dövlətin öz vətəndaşının yanında olması bütün çətinliklərin aradan qaldırılmasında önəmlidir. Zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında onlarla fərdi yaşayış evi qəzalı vəziyyətə düşdü, sosial və infrastruktur obyektlərinə ziyan dəydi. Təbii fəlakətdən dərhal sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində, adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edildi, zərər çəkmiş əhaliyə ilkin yardım göstərildi. İqtisadi cəhətdən güclü dövlət olan Azərbaycan dəymiş ziyanı asanlıqla aradan qaldırdı. Prezident İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi, "...heç bir təbii fəlakət bizi sarsıda bilməz. Azərbaycan dövləti güclü dövlətdir".

### "DÖVLƏT ÖZ DƏSTƏYİNİ GÖSTƏRİR VƏ GÖSTƏRMƏLİDİR"

Zəlzələ nəticəsində zərərçəkən vətəndaşlar dövlətimizin başçısının diqqət və qayğısını bir daha görmüş oldular. Dövlət başçısının hər bir vətəndaşın çətin anında yanında olmasından insanlar şərəf duyur və xalqımızı xoşbəxt gələcəyə aparan Lider ətrafında daha da sıx birləşiblər. Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması məqsədi ilə dövlət başçısı Sərəncam imzaladı. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin öz vətəndaşının yanında istənilən zaman olduğunu bir daha təsdiqlədi. Humanizm siyastəini bir daha nümayiş etdirdi. Bakının Nizami rayonundakı Ticarət Mərkəzində baş vermiş yanğınla bağlı, "biz burada əziyyət çəkən, maddi ziyan dəyən sahibkarların vəziyyətini başa düşməliyik, onlara kömək göstərməliyik və göstərəcəyik" deməsi də dövlət başçısının hər bir vətəndaşın yanında olduğunu bir daha təsdiqləmiş oldu. Bu, dövlətimizin həyata keçirdiyi siyasətdir.

Təbii ki, "Diqlas" Ticarət Mərkəzi özəl sektor olduğundan sahibkarlar əmlaklarını sığorta etdirməli idilər. "Adətən, inkişaf etmiş ölkələrdə belə hadisələr baş verdikdə, burada bütün maliyyə yükünü sığorta şirkətləri öz üzərinə götürür" deyən Cənab Prezident Azərbaycanda sığorta sahəsində boşluqların olduğunu diqqətə çatdırıb. Dövlət başçısı bu yaxınlarda Şamaxı, İsmayıllı, Ağsu rayonlarında baş vermiş zəlzələ nəticəsində minlərlə evə ziyan dəydiyini və heç bir evin sığortalanmadığını bildirib: "Təbii ki, dövlət öz dəstəyini göstərir və göstərməlidir. Artıq evlərin tikintisi başlamışdır və bu ayın əvvəlində birinci evlərin vətəndaşlara təqdimetmə mərasimi keçirilmişdir. Bütövlükdə, sahibkarlara məsləhət görülür ki, onlar öz əmlakını sığortalatsınlar. Belə olan halda, tam əmin ola bilərlər ki, bədbəxt hadisə baş verdikdə, onların əmlakı batmayacaq".

Bakı şəhərinin Nizami rayonundakı Ticarət Mərkəzində baş vermiş yanğın nəticəsində zərər çəkmiş sahibkarlara maddi yardım göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı dövlətin hər zaman vətəndaşını dəstəklədiyini bir daha göstərmiş oldu. Sərəncama əsasən, dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, ilkin olaraq, 3,0 (üç) milyon manat ayrılıb.

Cənab Prezidentin bu addımı dövlətin hər zaman vətəndaşının yanında olduğunu bir daha göstərdi.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövlətdən KİV-lə bağlı möhtəşəm və gözlənilən qərar!

*Mətbuatın inkişafı, jurnalistlərin sosial şəraitlərinin, çap və internet mediasının maddi imkanlarının yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir*

***Kifayət qədər zəngin və tarixi yollar keçən Azərbaycan bu gün də özünün yüksəliş dövrünü yaşamaqdadır. Belə ki, müasir və müstəqil ölkə mətbuatının yeni inkişaf mərhələsinin təməlini qoyan Ulu Öndər Heydər Əliyev hər zaman medianın cəmiyyətə təsir gücünü yüksək qiymətləndirib, mətbuat və söz azadlığı, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirib, o cümlədən, mövcud sahə ilə bağlı fərmanlar imzalanıb, böyük işlər həyata keçirilib.***



Belə ki, 2000-ci il martın 27-də imzalanan "Azərbaycanda milli mətbuatının yaradılmasının 125 illiyi" haqqında fərmanla ölkəmizdə demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli şəkildə qeyd olunub ki, məhz bu mühüm fərman dövlətin mətbuata verdiyi önəmin bariz sübutlarındadır. Əslində, Azərbaycan mətbuatına verilən dəyər həmin ildən bir il öncəyə təsadüf edir. Hələ 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" beynəlxalq tələblərə cavab verən qanun qəbul edilib. Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli sərəncamı ilə Azərbaycanda senzura ləğv olunub. 2001-ci il dekabrın 18-də ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşən Ulu Öndər mətbuatın problemlərini müzakirə edib. Məhz həmin görüşdən sonra bəzi problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi, onlara əlverişli imkanlara cavab verən kreditlər ayrıldı. Söz yox ki, Ümummilli Lider Heydər Əliyevin mətbuata bu cür dost münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Belə ki, O, 2002-ci il martın 22-də "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.



## Prezident İlham Əliyev tərəfindən uğurla, eləcə də ardıcıllıqla davam etdirilən media siyasəti

Artıq bu gün müstəqil və müasir ölkə mətbuatının formalaşması və inkişafına xidmət edən siyasət Prezident İlham Əliyev tərəfindən uğurla, eləcə də ardıcıllıqla davam etdirilir. Azərbaycanda söz və mətbuat azadlığına, kütləvi informasiya vasitələrinə ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Ölkəmizin artan iqtisadi imkanları mətbuatın inkişafı yolundakı çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həllinə şərait yaradır. O da əbəs deyil ki, ölkə başçımızın 2008-ci il 31 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu il aprelin 3-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlar olaraq ehtiva edilməkdədir. Eləcə də, milli mətbuatımızın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-lərə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və bu sahədə çalışanlara göstərilən qayğının tərkib hissəsidir.

Eyni zamanda, milli mətbuatımızın yubileylərinin təntənə ilə keçirilməsi artıq hər bir jurnalist üçün xoş ənənəyə çevirib. Cənab İlham Əliyev milli mətbuatın yubileyi ilə bağlı ilk Sərəncamı 2005-ci il iyunun 20-də imzaladı, mətbuatımızın 130 illik yubileyi bütün ölkə miqyasında qeyd olundu, çoxlu sayda KİV əməkdaşı orden və medallarla təltif edildi, fəxri adlara, Prezident təqaüdünə layiq görüldü.

Milli mətbuatımızın 135 illiyi də böyük təntənə ilə qeyd edilib. Bu dəfə də mətbuat nümayəndələri fəxri adlara və mükafatlara layiq görülüblər, kütləvi informasiya vasitələrinə maddi yardım ayrılıb. Mətbuat Şurası üçün yeni binanın ayrılması, onun müasir avadanlıqla təmin edilməsi, Prezident İlham Əliyevin binanın açılışında iştirakı, jurnalistlər qarşısında çıxışı bir daha bu həqiqəti təsdiq etdi ki, azad mətbuatın inkişafı dövlət siyasətində prioritetdir.

## Dövlət başçısının mətbuata qayğısının bariz təzahürləri

Dövlət başçımızın Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında Sərəncamı isə jurnalistlərə yeni əhval-ruhiyyə gətirdi, böyük rəğbətlə qarşılandı. Mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il Prezidentin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsaitin ayrılması mətbuat tariximizdə mühüm hadisə kimi dəyərləndirildi. Təsadüfi deyil ki, 2010-cu il dekabrın 1-dən 20-dək "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi 2010-cu ildə "Jurnalistlərin dostu" mükafatı qalibinin müəyyənləşdirilməsi ilə bağlı KİV və jurnalist təşkilatları arasında keçirdiyi sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

2013-cü il iyulun 22-də dövlətimizin başçısı jurnalistlər üçün tikilmiş binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edib. Həmin gün Prezident İlham Əliyev jurnalistlər üçün inşa edilən ikinci binanın təməlqoyma mərasiminə də qatılıb. Bütün bunların nəticəsidir ki, dövlətimizin başçısı həmin il noyabrın 24-də ikinci dəfə "Jurnalistlərin dostu" seçilib. 2015-ci il iyunun 2-də Azərbaycan Prezidenti İlham Əliyev milli mətbuatın 140 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Bakıda və respublikamızın bölgələrində milli mətbuatın yaranmasının 140 illiyi ilə əlaqədar çoxsaylı tədbirlər keçirilib.

2016-cı il iyulun 21-də isə dövlətimizin başçısı Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzaladı. Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrılıb. Prezident İlham Əliye-

# Dövlətdən KİV-lə bağlı möhtəşəm və gözlənilən qərar!

## *Mətbuatın inkişafı, jurnalistlərin sosial şəraitlərinin, çap və internet mediasının maddi imkanlarının yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir*

vin həmin gün imzaladığı digər sərəncama əsasən isə, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan KİVDF-yə üç milyon manat ayrılıb.

2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı. Məhz bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev 2017-ci ildə də "Jurnalistlərin dostu" mükafatına layiq görülüb.

Dövlətimizin başçısının mətbuata qayğısının daha bir təzahürü ötən il iyulun 16-da Azərbaycanda nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında sərəncam imzalamasıdır.



### KİVDF medianın tərəqqisi naminə bir sıra uğurlu fəaliyyətləri ilə jurnalist camеəsini sevindirməkdə davam edir

Onu da qeyd edək ki, bu gün KİVDF-nin fəaliyyəti də bilavasitə Prezident İlham Əliyevin Azərbaycan mətbuatına göstərdiyi diqqət və qayğının təzahürü olaraq qiymətləndirilir. Yeri gəlmişkən, yaxınlarda KİVDF-nin yaranmasının 10-cu ildönümü təntənə ilə qeyd olundu və bu qurum hazırkı dövrdə də medianın tərəqqisi naminə bir sıra uğurlu fəaliyyətləri ilə jurnalist cameəsini sevindirməkdədir. Belə ki, bugünlərdə KİVDF-nin müşahidə şurasının iclası keçirilib və həmin iclasda 25 qəzetə maliyyə yardımının ayrılması ilə bağlı qərar qəbul edilib.

Bu, eyni zamanda onu göstərir ki, zaman-zaman bəzi qaragüruhçular danılmaz fakt qarşısında qaldılar. Belə ki, bir müddət öncə, yazılı mətbuatın guya sıradan çıxarıldığını iddia edənlər indi qəzetlərin fəaliyyətinə diqqətin artırıldığının şahidlərinə çevrilməkdədirlər.

### KİVDF güzəştli və humanist yanaşma nümayiş etdirərək ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya bölünərək, maliyyələşdirilməsi qərarını verdi!

Beləliklə, sözügedən qərarla bağlı məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, 2019-cu ilin ikinci rübü üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan edilmiş müsabiqə fevralın 1-dən martın 28-dək davam edib. "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na əsasən 19 istiqamət üzrə keçirilmiş maliyyə yardımı müsabiqəsinə 25 ictimai-siyasi qəzetdən sənəd təqdim edilib.

İcraçı direktor qeyd edib ki, 2019-cu ilin ilk rübündə maliyyə yardımı ayrılmış əksər qəzetlərin fevral-mart aylarında tiraj və yayımla bağlı Fonda təqdim etdikləri hesabatlar onların ikinci rüb üçün elan edilmiş yeni maliyyələşmə şərtlərinə hazır olmadıqlarını göstərib. Qeyd olunub ki, Fond bu səbəbdən də güzəştli və humanist yanaşma nümayiş etdirərək fevral-mart aylarında tiraj və yayımla bağlı təqdim olunmuş sənədlər əsasında ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsini və maliyyələşdirilməsini təklif edir.

V.Səfərli bildirib ki, I kateqoriyaya son 3 ildə müntəzəm nəşr olunan, tirajı 3000 nüsxədən, satış və abunəsinin cəmi 2000 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan gündəlik (həftədə 5 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin daxil edilməsi, onlara aylıq 20000 manat maliyyə yardımının ayrılması təklif olunur.




II kateqoriyaya son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3, B2 formatda) az olmayan, günaşırı (həftədə 3 dəfədən az olmayaraq çap olunan) ictimai-siyasi qəzetlərin daxil edilməsi, onlara aylıq 10000 manat maliyyə vəsaitinin ayrılması məqsədəuyğun sayılır.

III kateqoriyaya isə son 3 ildə müntəzəm nəşr olunan, tirajı 2500 nüsxədən, satış və abunəsinin cəmi 1500 nüsxədən, müsabiqə elan edilən gündən səhifələrinin sayı 24-dən (A3, B2 formatda) az olmayan həftəlik ictimai-siyasi qəzetlərin daxil edilməsi və onlara aylıq 5000 manat maliyyə vəsaitinin ayrılması təklif olunur.

İcraçı direktor sonda vurğulayıb ki, yeni şərtlərə əsasən qəzetlərə ayrılacaq maliyyə yardımının əsaslı şəkildə artırılması nəzərdə tutulur.

### KİVDF dövlətin yürütdüyü uğurlu media siyasətinin icraçısı olaraq, bu kimi qərarlarla ölkə mətbuatının inkişaf və tərəqqisinə stimul verir!

Onu da qeyd edək ki, Müşahidə Şurasının üzvləri bu qərarı qəzetlərin mənafeyinə tamamilə cavab verən güzəştli, humanist və optimal yanaşma kimi dəyərləndiriblər. Şuranın sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Rasim Həsənov çıxış edərək vurğulayıblar ki, yeni təkliflər əsasında ayrılan maliyyə vəsaitinin məbləğinin əsaslı şəkildə artımı qəzetlərdə çalışan çoxsaylı jurnalistlərin də mənafeyinə cavab verən məqsədəmüvafiq addımdır.

Beləliklə, bütün bunlar göstərir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitlərinin, çap və internet mediasının maddi imkanlarının yaxşılaşdırılması hər zaman dövlətin, xüsusilə Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Məhz KİVDF də, bu siyasətin icraçısı olaraq, bu kimi qərarlarla ölkə mətbuatının inkişaf və tərəqqisinə stimul verir. Artıq bu gün hər bir mətbuat təmsilçisi bilir ki, dövlət daim onun yanındadır.

**Rövşən RƏSULOV**

# Milli musiqimizin təşəkkülü və inkişafında mühüm xidmətləri olan sənətkar

*Dövlət başçısının Sərəncamı ilə Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun 100 illik yubileyi qeyd ediləcək*



***Azərbaycanın ictimai, siyasi, mədəni həyatında rol oynayan, fəaliyyəti, istedadı və əqidəsi ilə xalqına xidmət edən ziyalılar dövlət tərəfindən yüksək qiymətini alır. Son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə tanınmış ziyalılara, sənət xadimlərinə fəxri adların, mükafatların verilməsi, yubiley tədbirlərinin respublika səviyyəsində təşkili, məhz belə insanlara dövlət tərəfindən göstərilən qayğının təzahürüdür.***

Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan bəstəkarı, tanınmış pedaqoq, dirijor və musiqi xadimi, SSRİ xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, professor Soltan İsmayıl oğlu Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı bu diqqət və qayğının davamının daha bir göstəricisidir. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi, Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Soltan Hacıbəyovun 100 illik yubileyinə həsr edilmiş tədbirlər həyata keçiriləcək.

Xalq sənəti xəzinəsindən və dünya musiqi təcrübəsindən faydalanaraq, müxtəlif janrlarda özünəməxsus üslubda epik vüsəti, dərin lirizmi və dolğun məzmunu ilə səciyyələnən qiymətli əsərlər yaratmış Soltan Hacıbəyovun Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında mühüm xidmətləri vardır. Geniş diapazonlu yaradıcılığa malik bəstəkar simfoniya, simfonik lövhə və süitaları, həmçinin, opera və balet, dram tamaşalarına musiqi, mahnı və romansları ilə Azərbaycanın mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir.

1919-cu il mayın 8-də Şuşada dünyaya gələn bəstəkarın yetişməsində və formalaşmasında xalq musiqisinin böyük təsiri olub. Tərcümeyi-halında qeyd olunur ki, 1930-cu ildə Bakıya köçən S.Hacıbəyov 1936-cı ildən əmisi Üzeyir Hacıbəylinin ailəsində yaşayıb və tərbiyə alıb. Orta məktəbi bitirdikdən sonra Musiqi Texnikumuna daxil olan S.Hacıbəyov truba sinfində oxuyur. Eyni zamanda, o, Musiqili Komediya Teatrında dirijor vəzifəsində çalışır. Bəstəkarın yaradıcılıq fəaliyyəti, məhz bu dövrdən başlayır. Onun ilk əsəri xor və simfonik orkestr üçün yazılmış "Pioner kantata"sı və "Qızıl gül" musiqili komediyasıdır.

"Qızıl gül" əsəri 1940-cı ildə Bakı Musiqili Komediya Teatrının səhnəsində böyük müvəffəqiyyətlə tamaşaya qoyulub. 1939-cu ildə bəstəkar Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə, professor Zeydmanın sinfinə daxil olub. O zaman xalq musiqisinin əsaslarını, bilavasitə Ü. Hacıbəyli özü tədris edirdi. Konservatoriyada oxuduğu illərdə bəstəkar seçdiyi sənətin texnikasına daha dərindən yiyələnmək üçün müxtəlif janrlara müraciət edib. O, 2 prelüd və fortepiano üçün sonata, İ.Zamanlının sözlərinə yazılmış "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnılarını, "Quşcuğaz", "Tənha yelkən ağarır" romanslarını, simli kvartet və simfonik variasiyalar (1943) yazıb.

Böyük Vətən müharibəsi illərində S.Hacıbəyov qəlbi vətən məhəbbətilə alovlanan mərd, sadə insanların qəhrəmanlığına həsr olunmuş bir sıra əsərlər yazıb, o cümlədən, "Döyüşçülər nəğməsi", 416-cı Taqanroq diviziyasına həsr edilmiş xalq çalğı alətləri orkestri üçün "Marş" əsərləri buna misaldır.

1945-ci ildə Türkmənistan Opera və Balet Teatrı S.Hacıbəyova "Kəminə və Qazı" operasını yazmağı sifariş edib. Həmin əsərin simfonik parçası "Karvan" adlanır. 1955-ci ildən əsər yenidən nəşr olunaraq, müstəqil şəkildə repertuarlara daxil olur. Üç hissədən ibarət olan əsər "Şur" muğamı üzərində bəstələnib.

1950-ci illərdə S.Hacıbəyov vokal musiqisi sahəsində çalışır. O, 50-53-cü illərdə bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestri üçün işləmişdir. "Sarı bülbül", "Leyla" və "Qarabağ şikəstəsi" buna misal göstərmək olar. 50-ci illərin ən məşhur əsərlərindən biri simfonik orkestr üçün yazılmış üvertüradır. Bu əsər milli musiqidə janr simfonizmi xəttini davam etdirir. Bəstəkar Azərbaycan və rus musiqi klassiklərinin ənənələrini öz fərdi yaradıcılıq süzgəcindən keçirərək, müasir ruhlu, milli koloritli əsər yaratmağa nail olmuşdur.

Bəstəkarın uşaqlar üçün yazdığı əsərlərinin mövzuları müxtəlifdir. Burada həm pioner həyatı (4 pioner nəğməsi), həm də təbiət təsvirləri ("Yeni il", "Bahar" və s.) var. 1953-cü ildə bəstəkar adlı "Oynaq topum", "Lay-lay", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı" 6 uşaq nəğməsi yazıb.

1950-ci ildə S.Hacıbəyov "Gülşən" baletini ərsəyə gətirib. Elə həmin illərdə S.Hacıbəyov vokal musiqisi sahəsində çalışır. O, həmçinin, bir sıra xalq mahnı və muğamlarını xalq çalğı alətləri orkestri üçün işləyib.

1950-ci illərdə bəstəkar Bolqarıstan və Çexoslovakiyaya gedir və vətənə qayıtdıqdan sonra "Bolqar süitası" və "Çex rəqsi" əsərlərini bəstələyir. 1964-cü ildə S.Hacıbəyov ən parlaq əsərini - orkestr üçün "Konsert"ini yazır. Əsər təzadların kəskinliyi, fəallığı, müasir musiqi dili, qeyri-adi və parlaq koloritli orkestrovkası ilə fərqlənir. "Konsert" milli simfonik musiqi mədəniyyətinə gözəl hədiyyədir.

S.Hacıbəyov bir çox tamaşalara musiqi bəstələmişdir. Bunlardan M.İbrahimovun "Məhəbbət", "Kəndçi qızı", S.Vurğunun "İnsan", S.S.Axundovun "Eşq və İntiqam", S.Rəhmanın "Əliqulu evlənir" və bir çox başqa əsərlərinin adını xatırlamaq lazımdır. 1948-ci ildən S.Hacıbəyov Azərbaycan Dövlət Konservatoriyasında müəllimlik edir, 1948-62-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri, sonra isə direktoru vəzifəsində, 1969-1974-cü illərə qədər Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində çalışır.

S.Hacıbəyov 1974-cü ildə vəfat edib. Azərbaycan musiqi mədəniyyətinə böyük töhfələr vermiş sənətkarın xatirəsi əbədi olaraq musiqisevərlərin qəlbində yaşayır və onun sənət nümunələrinə müraciət edilir.

*Zümrüd BAYRAMOVA*

# Aprel döyüşlərində yaralanmış hərbçilər və şəhid ailələri dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar



Azərbaycan tarixinin qürurverici səhifələrindən biri olan 2016-cı il Aprel döyüşləri Prezident, Ali Baş Komandan İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan Ordusunun hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə qüdrətli ordular sırasında olduğunu bir daha göstərdi. Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına qarşı uğurlu əks-hücum əməliyyatı həyata keçirən Azərbaycan Ordusu minlərlə hektar torpağı işğaldan azad edərək, həmçinin strateji cəhətdən mühüm ərazilərə sahib oldu.

Prezident İlham Əliyev Aprel döyüşlərinin dövlətimizin və Milli Ordunun gücünü, xalqımızın birliyini, həmrəyliyini və vətənpərvərliyini nümayiş etdirdiyini vurğulayıb. Həmin döyüşlərdə həlak olmuş qəhrəman Vətən oğullarının - şəhidlərimizin ailələri, yaralanmış əsgər və zabitlər dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, dövlət başçısının tapşırığına uyğun olaraq, şəhid ailələri və həmin döyüşlərdə yaralanaraq əlil olmuş hərbçilərlə bağlı mühüm sosial müdafiə tədbirləri həyata keçirilib. Onlara qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq sosial təminat növləri, o cümlədən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdləri, müavinət və ya əmək pensiyaları, habelə uşaqlarına, eləcə də əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə müavinətlər təyin olunub. Şəhid ailələrinə birdəfəlik ödəmələr verilib, onlar üçün Prezidentin aylıq təqaüdünün məbləği mütəmadi olaraq artırılıb. Bu sahədə növbəti mühüm addım kimi 2019-cu il fevralın 1-dən həmin təqaüd 300 manata çatdırılıb. Eləcə də müharibə əlilləri kimi, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olanların, o cümlədən Aprel döyüşləri ilə əlaqədar əlilliyi olanlar üçün müavinət və təqaüdlər də bu il aprelin 1-dən 100 faizədək artırılıb.

Eyni zamanda, Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin reabilitasiyasına xüsusi qayğı göstərilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun yaralanmış bir qrup əsgər və zabiti ilə görüşündə verdiyi tapşırığa uyğun olaraq, həmin döyüşlərdə iştirak edən əsgər və zabitlərin reabilitasiyası sahəsində yüksək səviyyədə işlər aparılıb. Heydər Əliyev Fondunun "2016-cı ilin Aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi çərçivəsində həmin əsgər və zabitlər Almaniya, İslandiya və İngiltərənin dünyada müasir protez istehsalçıları kimi tanınan şirkətlərinin yüksək texnologiyalı reabilitasiya məhsulları ilə təmin ediliblər.

Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, bu ilin fevralında 30-dək hərbçidən ibarət daha bir qrup Qarabağ müharibəsi əlili də protezləşməyə cəlb edilib. Onların hər birinin fərdi xüsusiyyətləri, aktivlik dərəcələri, həyat tərzləri nəzərə alınmaqla yüksək texnologiyalı məhsullar seçilərək təmin olunublar. Reabilitasiya vasitələri ilə təmin olunan həmin Qarabağ müharibəsi əlilləri artıq aktiv həyata geri dönərək əmək fəaliyyətlərini davam etdirir, bir qismi hərbi xidmətlərinə davam edir, ayrı-ayrı əlilliyi olan hərbçilər isə paralimpiya idman növləri ilə məşğul olurlar. Aprel döyüşlərində şəhid olanların ailələrinin, müharibə əlillərinin digər sahələrdə də qayğı ilə təmin olunması üçün müvafiq işlər aparılır.

# Kapitan Orxan Həsənov: Aprel döyüşlərində düşmən silahını atıb qaçırdı



Aprel döyüşləri sübut etdi ki, Ermənistan ordusu Azərbaycan Ordusundan dəfələrlə zəifdir. Cəmi dörd gün davam edən döyüşlər Ermənistan ordusunun "məğlubedilməzliyi" haqqında erməni cəmiyyətində yaranan mifi darmadağın etdi. AZƏRTAC xəbər verir ki, bunu Aprel döyüşlərinin iştirakçısı, kapitan Orxan Həsənov deyib.

Aprel döyüşlərindən əvvəl yaşayış məntəqələrimizi, mülki şəxsləri tez-tez atəşə tutan düşmənin sürətli və qətiyyətli əks-həmlə əməliyyatı nəticəsində sarsıdıcı zərbələrə geri oturdulduğunu deyən hərbçi döyüşlər barədə danışarkən bildirib: "Gecə yarı güllə səsləri eşidildi. Lakin bu dəfə düşmənin fikri fərqli idi. Bölməyə "Həyəcan" siqnalı verildi. Tanklarımızı, döyüş maşınlarımızı bir anda işə saldıq, heyətin bütün üzvləri yüksək peşəkarlıqla öz yerlərini aldılar. Əks-hücuma keçdik. Həmin an bütün hərbçilərimizin üzündə yalnız sevinc hissi vardı. Hamı bir nəfər kimi döyüşə ruh yüksəkliyi ilə qatıldı. Sanki şəxsi heyət bu günü çoxdan gözləyirmiş kimi düşmən üzərinə şığıdı. Düşmənin məkrli niyyətini ürəyində boğaraq murdar ayaqları ilə bir addım belə atmağa imkan vermədik. Tanklarımızla bütün manevrləri darmadağın edərək Talış yüksəkliyinə kimi irəlilədik. Düşmənin planı pozulmuşdu. Cəld və qətiyyətli cavab zərbəsi ilə qarşılaşdıqlarından özünü itirərək geri çəkilən düşməni sadəcə silah və texnikalarımız deyil, hərbçilərimizin cəsarəti, qəhrəmanlığı, Vətən, torpaq sevgisi qorxuya salmışdı. Bu döyüşlərdə rütbəsindən, vəzifəsindən asılı olmayaraq, hər kəs qəhrəmancasına döyüşərək düşməni məhv etdi və geri oturtdu. Qorxubilməz, cəsur oğullarımızın gücü qarşısında acizləşən düşmən nəinki silah və texnikasını, hətta əsgər yoldaşlarının meyitlərini belə qoyub qaçmağa başladı. Bu döyüşlər sübut etdi ki, Ermənistan ordusu da, əsgəri də Azərbaycan Ordusundan və əsgərindən dəfələrlə zəifdir. Biz bunu bütün dünyaya sübut etdik. Göstərdik ki, düşmən əzəli və əbədi torpaqlarımızdan xoşluqla çıxmasa, Ali Baş Komandanımızın əmri ilə onları məhv etməyə hər an qadirik".

Kapitan xüsusi vurğulayıb ki, Ordumuzun Aprel zəfərindən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi "Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir" sözləri şəxsi heyətin bu qələbəsinə verilən layiqli qiymət olmaqla yanaşı, hərbçilərimizi daha böyük qələbələrə də ruhlandırır.

Naxçıvan şəhərində anadan olduğunu deyən döyüşçü bildirib: "Əsrlərdir xalqımıza zülm edib taleyinə soyqırımı, faciə, qaçqın və məcburi köçkün həyatı yazan düşmənlərimizdən qisas almaq hissi ilə böyüdüm. Elə həmin illərdən qəlbimdə bir arzu anbaan böyüyürdü: Azərbaycanımızın işğaldan azad olunmuş bütün torpaqlarında üçrəngli bayrağımızın dalğalanmasını görmək."

# İKT-nin sürətli inkişafı ölkəmizin gələcək perspektivlərinə hesablanıb

***Azərbaycan Respublikasında həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində, ölkəmizin sosial-iqtisadi inkişafında mühüm irəliləyiş əldə edilib. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış və İnkişaf Konsepsiyası" ölkədə uzunmüddətli, uğurlu və dayanıqlı inkişafın təmin olunması üçün biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulmasının zəruriliyini müəyyən etmiş oldu. Cənab Prezidentin yürütdüyü siyasət nəticəsində, bugünkü Azərbaycan rəqabətə davamlı və müasir bir dövlətə çevrilib.***




Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012)"nın və onun icrası ilə bağlı qəbul edilmiş dövlət proqramlarının həyata keçirilməsi nəticəsində təhsil, səhiyyə və digər sosial sahələrdə, iqtisadiyyatda, biznes fəaliyyətində, gündəlik həyatda İKT-nin imkanlarından istifadə səviyyəsi nəzərəçarpacaq dərəcədə artıb. Ölkədə ən son texnoloji yeniliklər tətbiq edilib, internetə simli və simsiz, həmçinin mobil texnologiyalarla çıxış imkanları yaradılıb. İlk telekommunikasiya peyki "Azerspace-1" və yer səthinin müşahidə peyki "Azersky" orbitə çıxarılmış, bununla da, Azərbaycan kosmik ölkələr sırasına qoşulmuşdur. Daha sonra Azərbaycanın üçüncü peyki "Azerspace-2" uğurla orbitə buraxıldı. Ölkəmizdə İKT üzrə yüksəkixtisaslı kadr hazırlığı genişləndirilib, "elektron hökumət" üzrə genişmiqyaslı layihələr həyata keçirilib və cəmiyyət üçün vacib olan elektron xidmətlər təşkil olunub.

## YÜKSƏK TEXNOLOGİYALAR SEKTORUNUN İNKİŞAFI VƏ ONUN ELMİ-TEXNİKİ POTENSİALININ YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTİNDƏ MÜHÜM ADDIMLAR ATILIB

Görülən işlərin nəticəsidir ki, Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Ölkədə informasiya cəmiyyətinin formalaşdırılması üzrə siyasətin davam etdirilməsi, yeni inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, dövlət idarəçiliyində, biznes sektorunda və ümumilikdə, cəmiyyətdə hər bir vətəndaşın İKT-nin imkanlarından faydalanması üçün əlverişli şəraitin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" təsdiq edilmişdir. Milli Strategiyanın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" hazırlanmışdır. Sənəd Azərbaycanda informasiya cəmiyyətinin inkişafı, biliklər iqtisadiyyatının formalaşması, bütövlükdə, ölkəmizin tərəqqisi baxımından, çox mühüm sənəddir. Bu sənəd dünyada gedən proseslərə, tendensiyalara, müasir beynəlxalq çağırışlara və standartlara cavab verən mühüm inkişaf konsepsiyasıdır. İnformasiya cəmiyyəti quruculuğunda dövlət-sahibkar-vətəndaş tərəfdaşlığının gücləndirilməsi, həmçinin, beynəlxalq əməkdaşlığın ikitərəfli və çoxtərəfli müstəvidə genişləndirilməsi istiqamətində də kifayət qədər tədbirlər reallaşmışdır. Sənəddə nəzərdə tutulan bir sıra tədbirlərin 2020-ci ilin sonunda yekunlaşması nəzərdə tutulur. İndiyə qədər müvafiq tədbirlər planları çərçivəsində, qeyd etdiyimiz kimi, bir sıra mühüm işlər görülüb.

Yüksək texnologiyalar sektorunun inkişafı və onun elmi-texniki potensialının yüksəldilməsi istiqamətində də mühüm addımlar atılıb, ölkədə müxtəlif profilli texnoparklar yaradılıb. Təhsil və tibb sahələrində informasiyalaşdırma və elektron xidmətlərin göstərilməsi sahəsində işlər davam etdirilmişdir.

## AZƏRBAYCAN ALİMLƏRİ HAQQINDA VAHİD İNFORMASİYA BAZASI FORMALAŞDIRILIB

"Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı" çərçivəsində diaspor fəaliyyəti ilə bağlı nəzərdə tutulan işlərə dəstək məqsədilə AMEA-nın Rəyasət Heyəti "Azərbaycan alimləri diasporu" informasiya sisteminin işlənməsi haqqında qərar qəbul edib və qərarın icrası İnformasiya Texnologiyaları İnstitutuna tapşırılıb. İnstitutun məlumatına istinadən bu məqsədlə mütəxəssislərdən ibarət işçi qrupu yaradılıb. Diasporla iş üzrə Dövlət Komitəsi, Xarici İşlər Nazirliyi, Təhsil Nazirliyi, Elmin İnkişafı Fondu, AMEA-nın elmi müəssisə və təşkilatları, həmçinin, ölkənin bir sıra təhsil müəssisələri ilə birgə əməkdaşlıq çərçivəsində xarici ölkələrdə yaşayan alimlər haqqında zəruri məlumatlar əldə edilib. Beləliklə, "Azərbaycan alimləri diasporu" informasiya sistemi - "www.elmidiaspora.az" saytı istifadəyə verilib. Saytın yaradılmasında əsas məqsəd xarici ölkələrdə yaşayan Azərbaycan alimləri haqqında vahid informasiya bazasının formalaşdırılması, onların əldə etdiyi elmi nailiyyətlərin ölkə və dünya ictimaiyyətinə tanıdılması, həmçinin, əməkdaşlıq imkanlarının genişləndirilməsidir.

Sayt "Ana səhifə", "Sistem haqqında", "Rəsmi sənədlər", "Statistik göstəricilər", "Faydalı linklər" və "Əlaqə" bölmələrindən ibarətdir. Saytın "Statistik göstəricilər" bölməsində xaricdə yaşayan alimlərin ölkələr və elm sahələri üzrə paylanması, eləcə də, demoqrafik göstəricilərinə dair statistik rəqəmlər təqdim olunub. Statistik məlumatlara görə, Rusiyada 197, Türkiyədə 134, ABŞ-da 26 olmaqla, ümumilikdə, dünyanın 39 ölkəsində 500 azərbaycanlı alim fəaliyyət göstərir. Onlardan 440-ı kişi, 60-ı qadındır. Həmin alimlər, əsasən, riyaziyyat (91), tibb elmləri (54) və fizika (47) sahələrini təmsil edirlər. Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən saytda müxtəlif göstərici üzrə axtarış imkanı da yaradılıb.

"Azərbaycan alimləri diasporu" informasiya sistemi açıq informasiya resursu olduğu üçün onun mütəmadi təkmilləşdirilməsi, müvafiq dəyişikliklərin həyata keçirilməsi və xarici ölkələrdə yaşayan azərbaycanlı alimlər haqqında yeni məlumatların əlavə edilməsi mümkündür.

Göründüyü kimi, İKT-nin cəmiyyətdə kütləviləşdirilməsi və informasiya cəmiyyəti ideyalarının təbliği üçün genimiqyaslı tədbirlər həyata keçirilib. Qlobal informasiya məkanında Azərbaycanla əlaqədar məlumatların, həqiqətlərinin təbliği və yayılmasının genişləndirilməsi sahəsində həyata keçirilən tədbirlər də təqdirəlayiqdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

## Litvalı nazir: Azərbaycanın inkişaf modeli ilə yaxından maraqlanırıq



Azərbaycanın Litvadakı səfiri Tamerlan Qarayevin bu ölkənin kənd təsərrüfatı naziri Hedrius Surplis ilə görüşündə aqrar sahədə əməkdaşlığın perspektivləri müzakirə olunub. AZƏRTAC xəbər verir ki, "biz kənd təsərrüfatı sahəsindəki təcrübələrimizi Azərbaycan ilə bölüşməkdən daim məmnunuq", - deyən litvalı nazir Azərbaycanın da inkişaf modeli ilə yaxından maraqlandıqlarını bildirib. O, ölkəsinin Azərbaycan sərmayələrinə açıq olduğunu vurğulayıb.

Görüşdə qeyd olunub ki, Litva Kənd Təsərrüfatı Nazirliyinin Milli Ödəniş Agentliyi İtaliya və Polşanın müvafiq qurumları ilə birlikdə Azərbaycanda Avropa İttifaqının "Tvinninq" layihəsinin həyata keçirilməsi üçün seçilib. Nazir vurğulayıb ki, bu layihə litvalıların aqrar sahədə Azərbaycanda həyata keçirdikləri ilk iş deyil.

## Amerikada çıxan "The Trentonian" qəzetində azərbaycanlıların soyqırımı haqqında məqalə dərc edilib

ABŞ-ın Nyu-Cersi ştatında çıxan "The Trentonian" qəzetində Azərbaycan icmasının üzvü Gülnarə Mehdiyevanın məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, 1918-ci ilin mart ayında Azərbaycanda baş vermiş hadisələrə həsr edilmiş məqalə Amerika ictimaiyyətini azərbaycanlıların soyqırımı haqqında məlumatlandırmaq məqsədilə ABŞ Azərbaycanlılar Şəbəkəsinin hər il keçirdiyi kampaniya əsasında hazırlanıb. Materialda qeyd edilir ki, azərbaycanlıların soyqırımı 1918-ci il 31 mart-1 aprel günlərində Bakı, Şamaxı, Göyçay və Quba etnik azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilməsini, habelə XIX və XX əsrlərdə Azərbaycan xalqına böyük məşəqqətlər gətirmiş digər faciəli hadisələri əhatə edir. Tarixçilərin hesablamalarına görə, illər boyu baş vermiş soyqırımı nəticəsində həlak olmuş azərbaycanlıların ümumi sayı 500 min nəfərdən çoxdur. Qeyd olunur ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (AXC) elan ediləndən sonra "Mart hadisələri" AXC hökuməti tərəfindən təhqiq edilib, 1919-cu və 1920-ci illərdə isə 31 mart tarixi AXC-də Milli Matəm Günü kimi qeyd olunub.

Sovet hakimiyyəti illərində Azərbaycan xalqı azərbaycanlıların soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad edə bilmirdi, lakin 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyi bərpa olunandan sonra azərbaycanlılar 1918-ci ilin bu faciəli günlərinin ildönümünü həm ölkədə, həm də xaricdə qeyd edirlər.

## Ermənistanda avtobus sürücüləri və dəmiryolçular tətil edirlər

Ermənistanda Yerevan-Armavir marşrut xəttinin sürücüləri tətilə başlayıblar. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, sahibkar Şuşan Xaçatryan Paşinyanın bir il əvvəl seçki ərəfəsində Armavirdə səfərdə olarkən vəd etdiyi heç bir problemi aradan qaldırmadığını bildirib. O, baş nazirin sözünə inanaraq bankdan 250 min dollar vəsait götürüb və yeni mikroavtobuslar alıb. "Mən 30 ildən çoxdur bu sahə ilə məşğuləm. Ölkədə hazırda özbaşınalıq, qanunsuzluq mühiti hökm sürür. 1992-ci ildən Armavir-Yerevan xəttinin qanuni sahibi mən ola-ola müəyyən qurumlar mənim işimə süni maneələr, əngəllər yaradaraq işləməyə imkan vermirlər. Səbəb nədir bilmirəm. Əvəzində qanunsuz olaraq dövlətə heç bir vergi verməden başqa marşrutlar bizim xəttə girərək sərnişinlərə xidmət edir. Gedin avtovağzala çəkilişlər aparın və görün orada nə özbaşınalıqlar baş verir. Banklardan yüksək faizlə pul alaraq istifadəyə verdiyim yeni marşrutlarım qalıb bir kənarda, köhnə-yararsız, şəxsi dövlət nömrələri ilə digər marşrutlar sərbəst şəkildə bizim üçün ayrılan zolaqdan sərnişinləri yığırlar", - deyə narazı sahibkar vurğulayıb. Tətil elan edən sürücülər düz 7 aydır bu haqsızlıqlara qarşı mübarizə apardıqlarını bildirirlər.



Alaverdidə isə dəmiryolçular tətilə başlayıblar. Bildirilir ki, Ermənistan iqtisadiyyatında hökm sürən böhranlı vəziyyət dəmir yolu sisteminə də öz təsirini göstərib. Ölkədə stansiyaların bərbad vəziyyətdə olması bir çoxlarının bağlanmasına səbəb olub. Sərnişin çatışmazlığı ucbatından biletlərin qiyməti aşağı salınıb. Bununla da vəziyyət düzəlməyib. Dəmir yolu sisteminə daxil olan stansiyalardan bir neçəsinin fəaliyyəti dayandırılıb. İşçilərin əməkhaqqları isə aylarla gecikdirilir. Tətil elan edən dəmiryolçular problem həllini tapana qədər işə çıxmayacaqlarını bildirirlər.

# Zəfər tarixi

***Bu gün aprel zəfərindən 3 il ötür. 2016-cı il 1-4 tarixlərində Azərbaycan Silahlı Qüvvələrinin işğalçı Ermənistanın ordusunu məhv edərək, bir sıra əraziləri işğaldan azad etdi. Bununla, həm də "Böyük Qayıdış"ın əsası qoyuldu. Söhbət etdiyimiz müsahiblərimiz aprel zəfəri ilə Azərbaycan Ordusu şərfli tarix yazdığını bildirdilər.***



**Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış aprel döyüşlərindən 3 il ötür**

## Millət vəkili Azər Badamov: "Aprel zəfəri gələcək tarixi qələbənin bünövrəsini yaratdı"

- Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış aprel döyüşləri ordumuzun zəfər tarixidir. Aprel hadisələri uzun illər dəyişilməz qalmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yeni bir nəfəs verdi. Aprel döyüşləri güclü erməni ordusu mifini dağıtdı və düşməni öz danışıq ritorikasını dəyişməyə məcbur etdik. 4 gün davam edən müharibə kimin nəyə qadir olduğunu göstərdi. Həm də aprel zəfəri gələcək tarixi qələbənin bünövrəsini yaratdı. Aprel döyüşlərinə qədər Ermənistan və havadarları hesab edirdi ki, Azərbaycan işğalla barışıb və zaman keçdikcə, torpaqlar yaddan çıxacaq. Amma aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı heç zaman işğalla barışmayacaq və hər zaman torpaqları azad edib, öz ata yurdlarına qayıtmağa hazırdır. Aprel döyüşləri, ümumilikdə, cəbhədə vəziyyəti dəyişdi. Düşmənin üzərində tam nəzarət etmək imkanı əldə etdik. Fizuli, Cəbrayıl və Ağdərə rayonlarında 2000 hektardan çox torpağımız işğaldan azad olundu və oralara Azərbaycan bayrağı sancıldı. Strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyindən ermənilərin mövqelərinə tam nəzarət imkanını əldə etdik. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycanın mübariz, mətin ordusu və konkret tapşırıqları verən Ali Baş Komandanı var. Aprel döyüşləri heç də başa çatmayıb. Məhz aprel döyüşlərindən sonra Naxçıvanda Günnüt əməliyyatı aparılaraq, 11000 hektar torpağımızı azad etdik. Azərbaycan Ordusu addım-addım irəliləyir. Uduzan isə, ancaq işğalçı Ermənistandır. Ordusunun gücü hamıya məlum oldu, iqtisadi böhran dərinləşib, əhalisi ölkədən qaçır və demək olar ki, müstəqillik əldə edə bilmədi. Bütün bunların kökündə, təbii ki, Azərbaycan torpaqlarının işğal edilməsi dayanır. Biz isə, ancaq irəli gedirik. Bu irəli getməyimiz işğal altında olan torpaqların azad edilməsində, iqtisadi inkişafımızda, ordumuzun gücləndirilməsində, vətəndaşın rifahın yaxşılaşmasında, ölkəmizin və beynəlxalq mövqelərimizin möhkəmlənməsində görürük.

## "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir"

- İşğalçının aprel xofu Azərbaycan Ordusunun aprel zəfəri, təkcə Dağlıq Qarabağ münaqişəsinin tarixində deyil, bütövlükdə, hərb tariximizdə xüsusi yeri olan hadisədir. Artıq orta məktəblərin tarix dərsliklərində bu qələbə öz əksini tapıb. Prezident İlham Əliyevin dediyi kimi, aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın və ordumuzun gücünü göstərən qələbədir. Münaqişənin başlamasından, keçən uzun illər ərzində, ermənilər belə bir mif yaratmışdılar ki, onların ordusu "məğlubedilməzdir", təmas xəttində qurduqları müdafiə sədləri keçilməzdir. Azərbaycan Ordusunun sayca kiçik bir hissəsi, qəhrəman əsgər və zabitlərimiz bir neçə saatlıq döyüş nəticəsində ermənilərin öz orduları haqda yaratdıqları əfsanəni darmadağın etdilər. Bir fakt öz təsdiqini tapdı ki, ötən əsrin 90-cı illərində torpaqlarımızın işğalı, təkcə erməni ordusunun gücü ilə bağlı deyildi. Ərazilərimizin itirilməsi o dövrdə Azərbaycanda yaranan xaosun, qarşıdurmanın, hakimiyyət uğrunda mübarizənin, səriştəsiz adamların iqtidara gəlməsinin nəticəsi idi. Prezidentimiz çıxışlarının birində bu haqda belə deyirdi: "Ermənistan və onların havadarları bu vəziyyətdən istifadə edərək xarici dəstək, xarici müdaxilə hesabına bizim torpaqlarımızı işğal etmişdir. Bu, tarixdir, biz bu tarixi bilirik və gənc nəsil də tarixi olduğu kimi bilməlidir". Aprel zəfəri onu göstərdi ki, nə Azərbaycan dövləti, nə də xalqı torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, gec-tez düşmən tapdağı altında olan ərazilərini azad edəcək. Bunu həm ermənilər, həm də onlara dəstək verən xarici qüvvələr də artıq anlayıblar. Təsadüfi deyil ki, aprel döyüşlərindən sonra yaranan xof və qorxu nəticəsində, Ermənistandan miqrant kimi xarici ölkələrə axın edənlərin sayı artdı. Həmin günlərdə Azərbaycan xalqı öz vətənpərvərliyini bir daha sübut etdi. Təmas xəttinə yaxın ərazilərdə yaşayan yüzlərlə gənc silahsız və qorxmadan döyüş bölgəsinə getdilər, dinc əhaliyə yardım göstərdilər. Böyük şəhərlərdə gənclər, könüllü olaraq, səfərbərliklə məşğul olan qurumlara müraciət edərək, ön cəbhəyə getmək istəklərini bildirdilər. Təmas xəttinə yaxın yerlərdə yaşayan insanlar da cəsarət göstərərək, evlərini və kəndlərini tərk etmədilər. Bütün bunlar xalqda böyük ruh yüksəkliyi yaratdı. Ermənilərdə isə, əksinə, ruh düşgünlüyü yaranmışdı, onlar özləri vuruşmaq əvəzinə, sosial şəbəkələrdə və KİV-lərdə səs-küy salırdılar ki, "niyə müttəfiqlərimiz bizə kömək etmir?" Bu açıqlamalar, bir daha sübut etdi ki, Ermənistan Azərbaycan torpaqlarını xarici güclərin dəstəyi hesabına işğal altında saxlaya bilir. Tarixi zəfərdə Azərbaycan Ordusunun müasir silahlarla təmin edilməsinin rolu böyük oldu. Bu, onu sübut etdi ki, dövlətin müasir silahlara, döyüş ləvazimatlarına sərf etdiyi vəsait boşuna xərclənməyib. Hətta Ermənistanın o vaxtkı rəhbərliyi də, texniki baxımdan, Azərbaycan Ordusunun üstünlüyünü beynəlxalq səviyyədə etiraf etməyə məcbur oldu.

**GÜLYANƏ**

---

# Erməni mətbuatı Paşinyanı kökündən vurur

***Ermənistan bu gün, daha öncəki rejimlər kimi, Qərbdən uzaqdadır. Bundan əlavə, Paşinyan da öz sələfləri kimi istənilən məsələdə Putinlə məsləhətləşmələr aparmağa tələsir. Bu barədə Ermənistanın "armenianreport.com" saytının analitik bölməsində gedən siyasi təhlildə qeyd olunur.***

"2018-ci ilin aprelində Paşinyan çoxsaylı müxalifət təmsilçilərindən biri idi" deyə qeyd edilən təhlildə bildirilir ki, buna baxmayaraq, o, Ermənistanın iki ən böyük şəhərində - Gümrü və Yerevanda öz bayrağı altına Sarkisyan rejimindən narazı olan kütləələri toplaya bildi və sadəcə, "məxməri inqilab"ın lideri deyil, həm də mövcud hakimiyyətə qarşı meydan oxuyan, həmin vaxt ölkənin ən nüfuzlu şəxsi - Serj Sarkisyanı taxtından devirən şəxs oldu.

SİTAT: "Paşinyana bu rejimi dəf etmək üçün yalnız xalqın Sarkisyana və onun korrupsiyalaşmış hakimiyyətinə qarşı nifrəti deyil, həm də Paşinyanın xalqa verdiyi çoxsaylı vədləri, o cümlədən, Ermənistanın Rusiya asılılığından çıxaracağı ilə bağlı sözləri oldu. Lakin "məxməri inqilab"dan bir il keçdikdən sonra təəssüflə qeyd etmək lazımdır ki, Paşinyan cüzi olsa da belə, o zamanlar verdiyi vədlərini yerinə yetirə bilmədi. Bəli, ölkədə yaxşılıqlara doğru müəyyən dəyişikliklər oldu, lakin biz 2018-ci ilin aprelindən bu yana, tox və xoşbəxt həyat sürmək barədə danışa bilmərik".

Analitik yazıda, xüsusilə vurğulanır ki, Yerevan bu gün də Moskvanın təsiri altında qalmaqda davam edir: "Paşinyanın hakimiyyətdəki ilk vaxtlarında Kreml Ermənistanın inqilabçı hökumətinə qarşı bəlli ehtiyatlarını, hətta düşmənçilik münasibətini sərgiləməyə başladı, belə ki, çoxlarımız müxalifətçi Paşinyanın Ermənistanın gələcəyinin Rusiyaya bağlı Avrasiya İqtisadi İttifaqı və KTMT ilə deyil, Avropa İttifaqı və NATO ilə əlaqəli olacağı bəyanatlarını xatırlayırıq. Lakin zaman keçdi və biz görürük ki, postinqilab Ermənistanı, nəinki davamlı olaraq təzyiqlərə məruz qaldığı Avrasiya İqtisadi İttifaqında və KTMT-dəki üzvlüyünü qoruyub-saxlayıb, hətta daha çox Rusiyaya bağlanıb. Axı erməni ictimaiyyətinin də istədiyi kimi, rus sərhədçiləri, nə də hərbçiləri Ermənistanı tərk etmədilər, halbuki onların mövcudluğu birbaşa göstərir ki, ölkə Moskvadan asılıdır. Eyni zamanda, Ermənistan daha öncəki rejimlərdə olduğu kimi, bu gün Qərbdən də uzaqdadır. Bundan əlavə, Paşinyan Koçaryan və Sarkisyan kimi istənilən məsələdə Putinlə məsləhətləşmələr aparmağa tələsir".



## "Soruşula bilər ki, onda Paşinyan Kreml marionetkaları Sarkisyan və Koçaryandan hansı fərqi ilə seçilir?"

Siyasi təhlildə əsas mövzu olaraq, Paşinyanın Azərbaycan Prezidenti İlham Əliyevlə Vyanada keçirdiyi görüşünə də toxunulub və xüsusilə, erməni baş nazirinin həmin görüşdən sonra Rusiya Federasiyasının dövlət başçısı Vladimir Putinə zəng etməsinə işarə edilir. SİTAT: "Bax, misal üçün Paşinyan Vyanada Prezident İlham Əliyevlə görüşəndən sonra geri qayıtmağa macal tapmamış, dərhal Rusiya prezidenti Vladimir Putinə zəng etdi və bu vasitəylə danışıqların nəticələri barədə onun qarşısında hesabat verdi. Soruşula bilər ki, onda Paşinyan Kreml marionetkaları Sarkisyan və Koçaryandan hansı fərqi ilə seçilir? Hər kəs xatırlaya bilər ki, onlar da hər görüşdən sonra Putinə hesabat verməyə tələsirdilər, bu isə, erməni ictimaiyyətində narazılıq yaradırdı. Belə çıxır ki, Paşinyan Ermənistanın öncəki hakimiyyətləri kimi, Moskva qarşısında qul-nökərçilik amilindən qurtulmağı bacarmadı".

## "Paşinyan zəng etdi, İlham Əliyev isə bunu etmədi"

Məqalənin müəllifi erməni baş nazirini ittiham etməkdə davam edərək yazır ki, əslində, Paşinyan Ermənistanın və "Artsaxın" (dırnaqlar bizimdir-R.N.) yəni Qarabağın əhalisinə İlham Əliyevlə apardığı danışıqlar barədə dəqiq məlumat verməliydi: "Bunun yerinə isə, o, Putinə telefonla zəng edərək, Vyana görüşü barədə məruzə etməyə tələsdi. Maraqlıdır, İlham Əliyev isə bunu etmədi. O, Moskvaya zəng etməyərək, Paşinyanla danışıqlarının nəticələri barədə məruzəylə çıxış etmədi. Ancaq bizimki bunu etdi. Əgər xatırlasaq ki, Vyana danışıqlardan öncə, mövcud hökumətin nümayəndələri Moskvaya axışdılar, onda bundan hansı nəticəni çıxaracağımızdan danışmağa belə dəyməz".

## "Ermənistan Rusiyadan ayrılıb, heç yerə getməyəcək"

Nəticədə, Ermənistanın Rusiyadan asılı vəziyyətdə qalacağına işarə edən müəllif yazır: "Beləliklə, Kreml analitikləri və Putin rejiminin kommentatorları sakit ola bilərlər - Ermənistan Rusiyadan ayrılıb, heç yerə getməyəcək. Bu, ümumiyyətlə görünmür, hətta ən yaxın gələcəkdə belə bu, baş verməyəcək".

"Beləliklə, nə Kremldə, nə Krasnopresnensk sahilində və Smolensk meydanında, hətta Lubyankada rahat nəfəs ala bilərlər - Ermənistan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi yoldaş Nikol Vovayeviç Paşinyan bundan sonra da Sov. İKP-nın baş katibi yoldaş Vladimir Vladimiroviç Putinin tövsiyələrini dinləməyə, müdrik kursunu davam etdirməyə hazırdır" deyə "armenianreport.am"ın analitiki Ermənistanın baş naziri Nikol Paşinyana istehza edərək, elə salıb.

**Rövşən NURƏDDİNOĞLU**

# AXCP ilə Müsavat arasındakı qarşıdurma kimə lazımdır?

*Və yaxud satqınlarla xəyanətkarların davası böyüyür*

***Bu gün "müxalifət düşərgəsi" deyilən bir dağıdıcı məkanda cəmləşən və 26 ilə yaxın uğursuz yol gedən tör-töküntü "bir həsir, bir də Məmmədnəsir" olan partiyaciklərin nə dava-dalaşı və "birliyi" kimə lazımdır? Cavab birdir: ancaq xəyanətkar və cinayətkarlara. Çünki xəmirləri belə yoğrulub. Mənəviyyat onlar üçün xarici qüvvələrə satqınçılıq etməklə qəpik-quruş qazanmaqdır. Bu əxlaqsızlar hər cürə alçaqlıqlara əl atdılar- "siyasi mühacir", "siyasi məhbus" kimi "biznes" şousunu yaratdılar. İndi də mitinq savaşına çıxıblar. Kim qabağa düşəcəksə, alçaq əməlləri ilə ölkədə qarışıqlıq yaradacaqsa qrant daha çox alacaq.***

## Siyavuş Novruzov: "Qibləsini tanımayan və qibləsi Qərb olan Əli Kərimli vətəndaşları çaşdıra bilməz"

Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri, YAP İcra katibinin müavini Siyavuş Novruzov son günlər yenə də dağıdıcı müxalifətin mitinq şousu ilə bağlı canfəşanlıq etdiyini bildirib. Vurğulayıb ki, bu mənəviyyatsızlar, artıq zibilliyə atılanlardır, indi də bir neçə gün öncə "Diqlas" ticarət mərkəzlərində baş verən yanğınla bağlı, guya sahibkarlara "dəstək" olmaq üçün mitinq keçirmək istəyinə düşüblər. Ancaq bu satqınlar bilməlidirlər ki, dövlət onlara dəyən ziyanı öz üzərinə götürdü. Bu, Prezidentin humanist addımı idi və belə addımları dəfələrlə olub".

S.Novruzov onu da bildirib ki, bu məsələdən sui-istifadə edən Əli Kərimli və Arif Hacılı kimi satqınlar mitinq çağırışları edirlər: "Bu məsələdən sui-istifadə edənlər var. Bu məsələ adı altında mitinq çağırırlar. Qibləsini tanımayan Ə.Kərimli ilə Sevinc Osmanqızı səhv məlumat yayaraq, vətəndaşları çaşdırırlar. Çünki onların qibləsi Qərbdir".

## Əli Kərimlinin qabağa düşməsi Arif Hacılı dəstəsini narazı salıb

Elə yuxarıda sözügedən məsələ ilə bağlı martın 29-dan başlayaraq bar-bar bağıran Müsavat partiyası aprelin 7-də mitinq keçirəcəyini bildirib. Bundan duyuq düşən satqınçılıq simvolu AXCP sədri Əli Kərimli qabağa düşmək üçün növbəti xəyanətkarlığını nümayiş etdirərək, aprelin 6-na təkbaşına midinq keçirəcəyini bildirib. Müsavat başqanının müavini Fərəc Kərimli özünün şəxsi facebook profilində bildirir ki, "Milli Şura" aprelin 9-a sosial tələblər və siyasi məhbusların azad edilməsi şüarları ilə mitinq təyin etmişdir: "İndi isə Ə.Kərimli aprelin 6-na mitinq keçirəcəyini deyir. Bu da parçalanmış müxalifət cəbhəsində, xüsusən də, radikallar arasında yeni gərginliyin, narazılığın və fikir ayrılığının əsasını qoyub. Artıq bir neçə gündür ki, tərəflər bir-birlərini satqınçılıqda, riyakarlıqda və iqtidara işləməkdə günahkar bilirlər. Xüsusilə də, Ə.Kərimli kimi xəyanətkar partiya sədrindən bundan artıq nə gözləmək olar?"

## Vaqif Hacıbəyli: "Əli Kərimli qeyri-sağlam düşüncəyə malik satqın, xəyanətkar və hoqqabazdır"

Müsavat başqanı Arif Hacılının qardaşı, "Əhrar" partiyasının sədri Vaqif Hacıbəyli də Ə.Kərimlinin atdığı addımı tənqid edib: "AXCP sədri Ə.Kərimli qeyri-sağlam düşüncəyə malik satqın və xəyanətkardır. Bu dəfə də, o, özünə yaraşan şəkildə hərəkət edərək, hoqqabazlığını nümayiş etdirdi. Mitinq baş tutmayacaq, ora heç 50 nəfər də gəlməyəcək. Özünə hörmət edən hansısa tanınan müxalifət nümayəndəsi hoqqabaz və satqın Ə.Kərimlinin təsiri altında olan "Milli Şura"nın tədbirində "çağrılmamış qonaq" sifətində iştirak etməyəcək. Bu mənada onun müxalifətin "lideri statusu" isə boş xəyaldır".

Təbii ki, Ə.Kərimli kimilər yalnız şəxsi maraqlarını düşünən satqınlardır. İstər Ə.Kərimli, istərsə də A.Hacılı mitinqlər keçirməyə cəhdlər etməklə, özləri barəsində xaricdəki qüvvələrdə ciddi rəy formalaşdırmaq, əsas müxalifət olduqlarını isbatlamaq, bununla da, kimlərdənsə əlavə gəlir əldə etmək istəyirdir. Çünki Azərbaycan xalqı bu vaxta qədər keçirilən istər seçkilərdə, istərsə də mitinqlərdə biabırçı şəkildə məğlub olan, yalan vədlərlə ad çıxaran radikallara etimad göstərməyib. Ona görə də, çarə qalıb xarici ölkələrin Azərbaycandakı səfirliklərində qapalı görüşlər keçirməyə, təlimatlar yerinə yetirməyə, mitinqlər keçirmək və "siyasi məhbus" şouları düzənləməklə, 5-10 manat əldə etməyə.

Bir sözlə, riyakar əməllərin səmimiyyət, ləyaqət, dürüstlük kimi mənəvi dəyrlərdən uzaq olan dağıdıcı düşərgənin "ölü sakinlərinin" istər mitinqi, istərsə də "liderliyi" heç kimə maraqlı deyil. Çünki bu mənəviyyatsızların Siyavuş Novruzovun dediyi kimi, onların qibləgahı Qərbdir.

Yəni idarə olunanların sonu isə, zibillikdərdir.

**Rəfiqə HÜSEYNOVA**

# Müxalifət ənənəvi ampluasındadır

*"İsgəndər Həmidovla Tural Abbaslı arasında yaşanan dava-dalaş da, bir daha onu sübut edir ki, bu insanların səviyyə baxımından problemləri var"*

***Müxalifətdaxili qarşıdurmalar, "liderin" bir-birini təhqir etmələri hər zaman olub və bu gün də eyni proseslər davam etməkdədir. Müsavat-AXCP qarşıdurması fonunda "Azərbaycan Xalq Hərəkatı" adlı qondarma qurum daxilində baş verən son dava-dalaş müxalifətin dəyişməz ampluada olduğunu göstərir.***

"AXH"-də özünü banda başçısı kimi aparan AXC hakimiyyətinin sabiq daxili işlər naziri İsgəndər Həmidov Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahının hərəkatın idarə heyəti üzvlüyündən çıxarılması məsələsini qoyub. "AXH"-nin dönəm sədri, "AĞ" partiyanın başqanı Tural Abbaslı, VİP sədri Əli Əliyev və keçmiş hərəkatçı Bəxtiyar Tuncay N.Pənahlının çıxarılmasının əleyhinə, digər üzvlər lehinə olublar. Səsvermə nəticəsində N.Pənahlı AXH-dən uzaqlaşdırılıb. T.Abbaslının N.Pənahlını müdafiə etməsindən hiddətlənən İ.Həmidov T.Abbaslının "AXH"-nin idarə heyətindən uzaqlaşdırılması təklifini verib. T.Abbaslı təklifin əleyhinə çıxaraq, bunun hərəkatın əsasnaməsinə zidd olduğunu bildirib. İ.Həmidovun təklifi keçməyib və AXH-nin dönəm sədri idarə heyəti üzvü kimi qalıb. Bundan sonra hər iki siyasətçi arasında qarışıqlı ittihamlar səslənib. T.Abbaslı tərəflər arasında qarşıdurma yaranıb və İ.Həmidov T.Abbaslını sabiq səhiyyə naziri Əli İnsanova "ağsaqqalım" deməkdə ittiham edib. Bununla da, qarşıdurma daha da artıb. İ.Həmidov T.Abbaslıya hücum edərək, onu vurmaq istəyib. Beləcə, iclas dava-dalaş səbəbindən, öz işini yarımçıq başa çatdırmalı olub.

Ama bütün bunlar müxalifətə uğursuz nəticələr verir. Çünki cəmiyyət onların anormal siyasət apardıqlarını görür və bu baxımdan, onlara nifrət edirlər. Bu baxımdan, onlar sosial bazadan məhrumdurlar. Bunlar 1990-cı illərin əvvəllərində hansı vəziyyətdə idilərsə, bu gün də, eyni vəziyyətdədirlər. Yəni bir addım da olsun irəli gedə bilməyiblər. Çünki onlar mənsub olduqları siyasi düşərgədə heç bir islahatlar aparmayıblar. Bu səbəblərdən biri də, onların şəxsi ambisiyalarının olması, birini digərini qəbul etməməsi və bu cür dava-dalaşlar ilə bağlıdır. Bu günə qədər onlar tərəfindən yaradılan birliklər bir-birinə güzəştə gedə bilməməsi və aralarında yaranan dava-dalaşlar nəticəsində dağılıb. Bu da, müxalifət üçün xarakterik bir mənzərədir. Odur ki, belə məsələlər onların düşərgəsində tez-tez baş verir və bundan sonra da baş verəcəkdir. Bir sözlə, cəmiyyət onlardan bezib və onların, məhz bu hərəkətlərinə görə, onları qəbul etmək istəmir.



## Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Müxalifət də təmsil olunan insanların səviyyə baxımdan problemləri var"

- Biz dəfələrlə şahidi olmuşuq ki, müxalifət adlanan qurumda təmsil olunan insanların əksəriyyətinin səviyyə baxımdan problemləri var. Çünki bu insanlar özlərini apara bilmirlər. Cəmiyyətdə olduğu kimi, bunlar, hətta bir araya gəlib hansısa bir tədbir keçirərkən danışıq qabiliyyətlərindən tutmuş özünü aparmaq qaydalarına qədər adi etik qaydalara belə riayət etmirlər. İsgəndər Həmidovla Tural Abbaslı arasında yaşanan dava-dalaş da, bir daha onu sübut edir ki, bu insanların səviyyə baxımından problemləri var. T.Abbaslı ilə İ.Həmidov arasında yaş fərqinin olmasına baxmayaraq, bir-birinə hörmət qoymadılar. Hətta İ.Həmidov T.Abbaslını vurmağa çalışdı. İ.Həmidov həmişəki kimi, öz ampluasında çıxış edərək, övladı yaşında olan insanı təhqir edir, onu döyməyə cəhd etdi. Bu da, bir daha onların səviyyəsini göstərir ki, bu insanlar nəinki siyasətçi, heç adi insani hərəkətləri etmək imkanına malik deyillər. Biz bunu tək ikisinin timsalında görmürük, digər müxalifət partiya adlanan qurumlarda, eləcə də, kütləvi informasiya vasitələrində bir-birini təhqir etməsi, etik qaydalara sığışmayan sözlər və ifadələr işlətmələri hallarına rast gəlirik. Əsasən də, bunların çoxu maliyyə vəsaiti əldə etmək məsələsində bir-birinə qarşı mübarizə aparırlar. Siyasi fəaliyyətləri dönəmində müxaliflər çoxsaylı qurumlar yaradıblar. Ancaq yaradıldıqdan az sonra həmin qurumlar dağılıblar. Həm də, bunlar heç nəyə nail olmamış çalışırlar ki, lider olsunlar. Yəni belə qaydalarla müxalifət başbilənləri fəaliyyət göstərirlər. Artıq bunlar cəmiyyətin gülüş hədəfinə çevriliblər. Ona görə də, hesab edirəm ki, bunları siyasi fəlakət gözləyir.

Söhbət etdiyimiz müsahiblərimiz belə qarşıdurmaların müxalifət başbilənlərinin xarakterinə və anormal siyasi fəaliyyətlərinə uyğun olduğunu bildirdilər.

## "Yurddaş" partiyasının sədri Mais Səfərli: "Müxalifət çox acınacaqlı bir durumdadır"



- Bugünkü reallıq onu təsdiq edir ki, müxalifət çox acınacaqlı bir durumdadır. Sadəcə olaraq, bunlar gündəmə gəlmək üçün çox müxtəlif çeşidli üsullara əl atırlar ki, gündəmdə qalsınlar. Normal siyasi fəaliyyət göstərməmələri ucbatından cəmiyyət tərəfindən qəbul edilmir, iştirak etdikləri seçkilərdə məğlub olur və keçirdikləri aksiyalar uğursuzluğa düçar olurlar. Gündəmdə qalmaq üçün hay-küy qaldırırlar. Am-

**GÜLYANƏ**

# Ölkə əhalisinin 4,9 milyona yaxın hissəsini məşğul əhali təşkil edib

Dövlət Statistika İdarəsinin verdiyi məlumata görə, bu il martın 1-nə olan ilkin statistikaya əsasən iqtisadi fəal əhalinin sayı 5129,9 min nəfər olub və onlardan 4876,0 min nəfərini məşğul əhali təşkil edib. Həmin mənbədən AZƏRTAC-a bildirilib ki, bu il fevralın 1-nə olan məlumata görə, muzdla işləyənlərin sayı 1523,8 min nəfər olub. Onlardan 862,8 min nəfər dövlət sektorunda, 661,0 min nəfər isə qeyri-dövlət sektorunda çalışıb. Neft sektorunda çalışanların sayı 34,3 min nəfər, qeyri-neft sektorunda çalışanlar isə 1489,5 min nəfər təşkil edib. Müəssisə və təşkilatlarda muzdla çalışanların 22,9 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,2 faizi emal sənayesində, 6,6 faizi tikintidə, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,2 faizi mədənçıxarma sənayesində, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində işləyənlər olub.

# “Azərbaycan Xalq Hərəkatı”nda təpik-yumruqlu iclas

*Yaxud çayxana müxalifəti yenidən gündəmə çıxmaq arzusundadır*

***Dağıdıcı təmayüllü müxalifətin yarandığı dövrlərdən hazırkı zamana qədər dəyişməmiyi gözlər önündədir. İstər düşərgədəki partiyaların, istərsə də, həmin partiyaların birləşib-ayrıldıqları azömürlü birliklərin illərdən bəri dəyişməyən təfəkkürləri necə var, elə də qalmaqda davam edir. “DUBB”-dan başlayaraq “SİDSUH”-a qədər, “MKM”-dən başlayaraq, “Azadlıq”, “Bizim Azərbaycan” və s. bloklarına qədər, “İctimai Palata”-dan başlayıb, “Milli Şura”-ya qədər yaradılan birliklərin acı sonluğu barədə isə yenidən xatırlamalar etməyə lüzum yoxdur, çünki siyasi ictimaiyyət baş verən hər bir hadisəni ən kiçik detallarına qədər xatırlayır.***

## Dava-dalaşa səbəb isə, MDP-nin sədri Nemət Pənahlının hərəkatın idarə heyətinin üzvlüyündən çıxarılması olub



Beləliklə, illər ötsə də, zaman dəyişilsə də, müxalifət dəyişilməyib və yerində addımlamaqda davam edir. Necə ki, bu düşərgədə fəaliyyət göstərən birliklərə qarşı alternativlik iddiasını ortaya qoyan “Azərbaycan Xalq Hərəkatı” kimi...

Məsələ həm də ondadır ki, bu gün “AXH”-də özlərini başbilən hesab edənlərin əksəriyyəti elə yuxarıda adları hallanan qurum və birliklərdə təmsil olunublar. Ancaq məsələ ondadır ki, xüsusi canfəşanlığı AMDP-nin sədri İsgəndər Həmidov və sabiq müdafiə naziri, başı hələ də sahibi tərəfindən vəd edilmiş güllənini gözləyən Rəhim Qazıyev göstərib. Dava-dalaşa səbəb isə, MDP-nin sədri Nemət Pənahlının hərəkatın idarə heyətinin üzvlüyündən çıxarılması olub. Maraqlıdır ki, bu iclasda heç N.Pənahlının özü iştirak etməyib.

## İsgəndər Həmidov və Rəhim Qazıyev Tural Abbaslıya qarşı

Onu da qeyd edək ki, “AXH”-yə dönəm sədrliyi edən “Ağ Partiya”nın sədri Tural Abbaslı N.Pənahlının çıxarılmasına etirazını bildirib və onun etirazını VİP sədri Əli Əliyev, sabiq hərəkatçı Bəxriyar Tuncay dəstəkləyiblər. İ.Həmidov, R.Qazıyev N.Pənahlının qalmasın tələb edərkən, KXCP sədri Mirmahmud Mirəlioğlu bitərəf qalıb. Məsələ də, məhz bundan sonra başlayıb. Xüsusilə, İ.Həmidovun iclasdakı adamları, özü də daxil olmaqla, T.Abbaslıya hücum ediblər. Lakin buna baxmayaraq, N.Pənahlı “AXH”-nin idarə heyəti üzvlüyündən çıxarılıb.

## Tural Abbaslı İsgəndər Həmidova: “Sən Əli İnsanova “ağsaqqlım” demisən”

Bu qərarın ardınca, İ.Həmidov və R.Qazıyev T.Abbaslının adıçəkilən hərəkatın idarə heyətindən çıxarılmasına səs verməyə çağırıblar. Maraqlısı da budur ki, AMDP sədri “Ağ Partiya” sədrinin bir neçə gün öncə mətbuatda yaşlı siyasətçilərin siyasi arenanı tərk etməli olduqları ilə bağlı fikirlərini, eləcə də, Abbaslının hərəkata daxil olmayan siyasi partiyalarla görüşməsini arqument olaraq gətirib. Böyük qalmaqala çevrilən qarşıdurmalar pik həddinə çatıb və tərəflər bir-birlərini ən ağır söyüşlərlə təhqir ediblər.

T.Abbaslı isə İ.Həmidovu hər yerdə hərəkatın adından danışmaqda günahlandırıb və həbsdən çıxan sabiq səhiyyə naziri Əli İnsanova “ağsaqqalım” deməkdə ittiham edib. Beləliklə, gərginlik daha da artıb və hər iki siyasətçi əlbəyaxa dava həddinə çataraq, hətta üz-üzə dayanıblar. Üç saat davam edən iclasda gərginlik sona qədər davam edib.

## Necə deyərlər, çayxana müxalifəti iş başındadır...

Məhz adicə bir məqamın videoçəkilişinə baxarkən, bir daha aydın olur ki, özlərini müxalifətin başbilənləri hesab edən bu “zümrə” ümumiyyətlə, nə Azərbaycan dövləti, nə də xalq haqqında qətiyyən düşünmürlər. Əksinə, onları düşündürən amil şəxsi maraqlarının təmin olunması üçün siyasi arenada özlərini reklam etdirmək, bu vasitə ilə xarici təşkilatların diqqətini özlərinə cəlb etməkdir. Əgər bir yerdə İ.Həmidov, R.Qazıyev və digər bu kimi adamlar varsa, orada xaosun, başıpozuqluğun olacağını bəri başdan proqnozlaşdırmaq mümkündür. Artıq “AXH”-nin daxilində baş verənlər də həmin reallığı bütün çılpaqlığı ilə növbəti dəfə sübuta yetirdi. Necə deyərlər, çayxana müxalifəti iş başındadır...

***Rövşən NURƏDDİNOĞLU***

# “Nar” paytaxtda növbəti rəsmi mağazasını təqdim etdi

***“Nar” bütün ölkə ərazisində yaşayan sakinlərə göstərilən xidmət səviyyəsini daha da yüksəltmək məqsədilə, mağazalarının sayını artırmaqda davam edir. Mobil operator növbəti mağazasını paytaxtın Binə qəsəbəsində təqdim edib. Yeni konseptə uyğun ekspress tipli mağaza Xəzər rayonu, Binə qəsəbəsi, Əli İsazadə 9 ünvanında yerləşir. Qeyd edək ki, müasir avadanlıqlarla təchiz edilən dükanda müştərilərə müxtəlif təkliflərlə xidmət göstəriləcək. Özünün müştəri yönümlülük dəyərlərinə sadiq qalan “Nar”, mağazada nömrələr üzərində müxtəlif əməliyyatların həyata keçirilməsi, satışı, internet paketlərinin alışı, telefonların satışı da daxil olmaqla, diler əməkdaşları tərəfindən bütün növ abunəçi xidməti göstərir.***




Yeni dükanın təqdimatı ilə əlaqədar olaraq, aprelin 15-nə kimi mağazadan nömrə alan müştərilərə “Nar” tərəfindən müxtəlif hədiyyələr və ikinci nömrə veriləcək. “Nar” mağazalarının ünvanı və xidmətləri haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən “Nar” şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan “P3 Communications” keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.



**Təhmasib Novruzov**

# Təşkilatlana bilmirikmi?..

Son vaxtlar sosial şəbəkələrdən gen-bol istifadə edən bəzi “vətənpərvərlər” ağızlarına gələni köçürüb videolentə, yayırlar aləmə. Doğrusunu deyim ki, belə çıxışlara qulaq asmaqdan, hər kəs kimi, mən də bezmişəm. Bilmirəm, məntiqsiz, dünyada və regionda gedən proseslərdən baş çıxarmayan, dövlət və dövlətçilik haqqında bilikləri sıfıra bərabər olan, olayları öz cılız düşüncələrinin imkan verdiyi qədər “təhlil” edib camaata ibrət dərsi verməyə cəhd edənlər bu ölkənin sabahına vurduqları zərbənin fərqindədirlərmi görəsən? Bəziləri də bu çıxışların mahiyyətinə varmadan, onu paylaşır və altından ibarəli cümlələrlə tərifər də yazırlar.

Olsun, demokratik cəmiyyətdir, hər kəs düşüncəsini paylaşa bilər. İnkişafımıza zərərli olsa da, bu da bir keçiddir və yəqin ki, danışa-danışa hər kəs içindəkini töküb, sonda həqiqətin yolunu dərk edəcək. Ancaq hər bir azərbaycanlı üçün qaçılmaz olan bir mövzu var ki, o barədə danışan hər kəsin dediklərinə qulaq asmağa məhkumuq. Çünki bu mövzuda danışmaq həm asandır, həm də çətin. Asandır, ona görə ki, Qarabağ dərdi hər birimizin içində hələ də irinləyən bir yaradır və bu yaranın ağrısı az-çox vətən dərdini daşıyan hər kəsin qəlbində var. Çətindir ona görə ki, bu mövzuda danışıb insanları çaş-baş salmaq bizə həddən artıq baha başa gələ bilər.

Bu günlərdə kifayət qədər yaxşı tanıdığım, vətənpərvər ziyalılığına qətiyyən şübhə etmədiyim, iyirmi ildən artıqdır ki, “Qarabağ Azadlıq Təşkilatı” kimi mötəbər bir quruma rəhbərlik edən Akif Nağının ictimaiyyətə yeni bir müraciətinə qulaq asdım. Akif bəyin həm bu, həm də buna qədərki çıxışlarında bəzi ziddiyyətlər olmasına baxmayaraq, həm də yuxarıda dediyim bəzi “milliət fədailəri” kimi boğazdan yuxarı danışmadığına da əminəm. Akif bəyin qoyduğu bəzi məsələlərin rəsmi dövlət qurumları tərəfindən diplomatiya və beynəlxalq baxış acısından dəstəklənməməsini də təbii qarşılayıram. Ancaq Akif bəyin son çıxışında toxunduğu bir məqama münasibət bildirməməyi özümə borc bildim. Akif bəy çıxışında cəmiyyətin Qarabağın azadlığı uğrunda təşkilatlana bilməməsini, birinci savaş zamanı da təşkilatlana bilməməyimiz ucbatından, məğlub olduğumuzu qeyd etdi və hər kəsi təşkilatlanma işinə qoşulmağa çağırdı. Əvvəla, müharibə dövlət tərəfindən aparılır və hər kəs missiyanın dövlət tərəfindən həyata keçiriləcəyinə inanır. Odur ki, Akif bəyin Qarabağ uğrunda təşkilatlanmaq deyəndə, nəyi nəzərdə tutduğu qaranlıq qalır. Ermənilərə qarşı terror təşkilatlarmı yaradılmalıdır? Beynəlxalq hüquq Azərbaycana torpaqlarını işğaldan azad etmək ixtiyarı verirsə, niyə Qarabağ uğrunda təşkilatlanmanı dövlətdən kənarda axtarmalıyıq? Bu, məsələnin bir tərəfi. İkinci tərəfi isə, odur ki, ixtisasca tarixçi olan A.Nağının yaxın tariximizi unutması və ya ona obyektiv yanaşmaması qəribə görünür. 1988-ci ildə başlanan “Qarabağ oyunu”, müstəqil dövləti olmayan, SSRİ rəhbərliyinin dəstəyinə arxalanan haylarla üzbəüz qalan, kənardan nə maddi, nə də mənəvi köməyi olmayan, yeganə dayağı olan Ulu Öndər Heydər Əliyevin də SSRİ rəhbərliyindən kənarlaşdırılması ilə bağlı bu dəstəkdən də məhrum edilən xalqımızın güclü təşkilatlanması sayəsində Qarabağ hüquqi baxımdan Azərbaycanın tərkib hissəsi kimi qaldı. Nəticədə, SSRİ dağılarkən, beynəlxalq qurumlar və dünya dövlətləri Qarabağı, məhz Azərbaycanın tərkib hissəsi kimi tanımalı oldu ki, bu gün biz bu torpaqların Ermənistan tərəfindən işğalını qətiyyətlə iddia edə bilirik. İstərdim ki, 1989-cu ilin iyulunda, SSRİ Ali Sovetinin Dağlıq Qarabağ üzrə komissiyası (tanınmış yazıçı Oleynikov həmin komissiyanın sədri idi) problemlə yerində tanış olmaq məqsədilə Qarabağa gələndə, Şuşada və Xocalıda onlarla üz-üzə gələn xalqın nə qədər yetkin və təşkilatlanmış olduğunu hər kəs xatırlayaydı. O zaman bizlərə məlum idi və sonradan bunu Oleynikov da etiraf etdi ki, M.Qorbaçov SSRİ Ali Sovetinin növbəti sessiyasında DQMV-nin Ermənistanın tərkibinə verilməs haqqında qərar da hazırlamış, məhz həmin komissiyanın sədrinin və üzvlərinin rəyi ilə bu qərar qəbul edilməli idi. Fəqət, o zaman təşkilatlanmış xalqın tarixi uğuru idi ki, Oleynikov da, komissiyanın digər üzvləri də belə bir rəyə imza atmadılar. Sonradan bu təşkilatlanmış xalqı pərən-pərən salıb, bu gün vətəpərlikdən ağızdolusu danışanlar haqqında isə danışmağa ehtiyac görmürəm.Çünki artıq millət onları yaxşı tanıyır və dabbaqdakı gönlərinə də bələddir... İnşaallah, yaxın vaxtlarda qeyd etdiyim həmin tarixi hadisə barədə daha ətraflı yazıb, tarixi unudanların yaddaşlarını təzələməyə çalışacağam.

# Klassik filosoflar cinayət hüququ haqqında

***Hegel ölüm cəzasının əxlaqiliyi məsələsində Kantın mövqeyində dayanaraq, hesab etmişdir ki, qəsdən adamöldürmə cinayətinə görə yalnız cinayətkarın həyatdan məhrum edilməsi cəzası təyin edilə bilər. Kolerin, haqlı olaraq qeyd etdiyi kimi, "Əvəzçıxma və günahın təmizlənməsi təlimi çox halda düzgün qaldırılmamışdır. O, Hegelin təlimi kimi, Hegel dialektikasından real həyata keçirilməsindən başqa bir şey deyildir.***

Ümumən cəzaya, xüsusi halda isə, ölüm cəzasına əvəzçıxma olaraq əxlaqi cəhətdən haqq qazandırılması Hegelin inkarı inkar qanunundan irəli gəlir ki, onun da mahiyyəti aşağıdakından ibarətdir; ideya düzgün dialektik qaydada inkişaf edir və üç əsas qaçılmaz məqamdan keçir. Əvvəlcə hansısa məntəqəyə istiqamətlənməklə, özünü müəyyən edir və məzmununun müəyyən məhdudlaşdırılmasını əldə edir (tezis), sonra təbii qayda üzrə ideya qarşıya qoyulmuş müəyyənliyin (antitezis) inkarına keçir, lakin bu inkarın üzərində dayanmaq imkanına malik olmayaraq, əvvəlki iki məqamı yeni, üçüncü məqamda (sintezis) birləşdirir, razılaşdırır və barışdırır. Bu, ümumi ideyadan çıxış edərək, Hegelin tezisi hüquq sayılır, antitezis kimi bu hüququn ümumi iradəyə qəsd və mahiyyət etibarilə hüququn inkarı sayılan onun pozulması nəzərdən keçirilir. Hüququn pozulmasında təzahür edən ümumi iradənin inkarı, öz növbəsində, inkara məruz qalmalıdır; bu ictimai hakimiyyət tərəfindən cəzanın tətbiqi yolu ilə də edilir və Hegelə görə, bu, dialektik qanun üzrə labüd olan əvəzçıxma sayılır. Ona görə də, Hegelin nəzəriyyəsi hüquqşünaslar arasında dialektik əvəzçıxma nəzəriyyəsi adlanır.

Cinayət hüququ sahəsində bu, daha konkret olaraq, aşağıdakı şəkildə təqdim oluna bilər: cinayət hüququ və qanun müsbət məqamdır, çünki ictimai mənafeyi mühafizə edir və digər müsbət funksiyaları yerinə yetirir, yəni o, "plyusdur" (+). Bu hüququn cinayət şəklində, məsələn, qəsdən adamöldürmə cinayəti törədilməklə, pozulması inkar sayılır. Belə ki, insan həyatdan məhrum edilir və eyni zamanda, ictimai təhlükəsizlik pozulur. Bu, "minus" (-) sayılır. Bu halda belə, cinayət ölüm cəzası şəklində bərabər inkarı doğurur ki, bu da inkarı inkara və ya ikiqat inkara gətirib çıxarır. Nəticədə, biz müsbət vəziyyət, yəni pozulmuş cinayət hüququ normasının bərpa edilməsi şəklində sosial ədalətin təsdiqini əldə etmiş oluruq. Çünki Hegelə görə, iki minus plyusu yaradır.

Hegelin nəzəriyyəsinə görə, cinayət hüququn forma və materiyası və ya hüquq ilə "həyat" arasında disharmoniyanın simptomu və nəticəsidir. Disharmoniya mənfi dəyəri əks etdirir, bu mənada, düşüncəsiz "irrasionaldır". Cinayət - ümumi həyat axınından qopmanı, hüququn artıq ali mərhələsinə keçməsindən imtina edilməsini, özündə donub qalmış ətaləti, öz atomizmində inadkarlıq edən xüsusi həyatı ifadə etdirir. Cinayətin törədilməsi ilə baş verən nəticəni bərpa etmək, əlbəttə, mümkün olmasa da, cinayətdən irəli gələn hüquqi yaradıcılıq harmonik münasibətin, yəni ədalətin bərpasında irəliyə doğru hərəkət sayıla bilər. Beləliklə, ədalət, ilk öncə, həm də harmoniyadır (Platon) və onun hər cür pozulması yalnız bərpa olunmasına çağırışdır. Başqa sözlə, Hegel cəzanın əhəmiyyətini cinayət ilə baş verən nəticənin yumşaldılması vasitəsi kimi görür. Bu, konkret fərdin iradəsinin çoxluğun ifadəsindən fərqlənməsidir. Cəza vasitəsilə bu fərqin bərpa olunması cinayət ilə cəzanın dəyərlərinə görə, bərabərliyi mənasında, eyniləşdirilməsi əsasında baş verir.

Beləliklə, Hegel hesab etmişdir ki, cəzaya əvəzçıxma vasitəsi olaraq, ədalət nöqteyi-nəzərindən də haqq qazadırıla bilər. Çünki özgənin ifadə sferasına soxulan iradə həmin müdaxiləyə uyğun tədbir ilə inkar olunmalıdır. Cəzanın əvəzçıxma kimi mahiyyəti, məhz bunda ifadə olunur, kimsə nə edibsə, onun əvəzi də o cür çıxılmalıdır. Bu əvəzin qaytarılması bərabərləşdirməni, yumşaldılmanı, ona görə də, pozulmanın bərpa olunmasını nəzərdə tutur. Hegel cinayətin məhz məhv edilməsini əvəzçıxma adlandırır.

İ.Rəhimov yazır: "Qeyd etmək lazımdır ki, inkar problemi yeni deyildir. Bu məsələ qədim filosoflar tərəfindən qoyulmuş və artıq bu ilk sistemlərdə ciddi fərqlərin olmasına baxmayaraq, mühüm yer tutmuşdur. Hələ Heraklit inkarda mövcudluğun mahiyyətini görürdü, Platon isə inkarı (mövcud olmamanı, başqasını) anlayışların hərəkətinin prinsipi sayırdı. Hegeldə, onun dialektik kateqoriyaları sistemində inkar problemi xüsusi, bəlkə də, mərkəzi yeri tutmuşdur və çoxlu konkret problemlərə əlavə olunmuşdur.

Cinayət hüququ, xüsusən cəza institutu sahəsində inkar qanununun tətbiqinin düzgün olması mübahisəsizdir. Cinayətin mənfi hadisə olması və buna görə cinayət hüququnu inkar etməsi şübhə doğurmur. Lakin cəza - bu, böyük dərəcədə müsbət hadisə və anlayışdır. Yəni onun həm müsbət, həm də mənfi xüsusiyyətləri vardır, o, həm xeyir, həm də şərdir. Ona görə də, cinayət əgər "minusdursa" (-), cəza isə həm minus (-), həm də "plyusdur" (+). Cəza yalnız bu keyfiyyətdə pozulmuş hüququ bərpa edə bilər. Cəza müsbət keyfiyyətləri plyus (+) vasitəsilə ədaləti bərpa edir və ictimai mənafeyin mühafizəsi funksiyasını həyata keçirir, mənfi xüsusiyyətləri ilə isə cinayətkara ağrı və məhrumiyyət yetirir. Cəzada mənfi xüsusiyyətlər müsbət xüsusiyyətlərdən çox olduqda, o, qisas və intiqam sayıla bilər. Ədalətli əvəzçıxma cəzanın məzmununda müsbət və mənfi xüsusiyyətlərin bərabər olmasını nəzərdə tutur. Burada riyazi formulalardan sui-istifadə diqqəti cəlb edir və bütün arqumentə qəribə xarakter verir. Axı iki "minusun", yəni iki inkar işarəsinin "plyus" olması üçün onların bir-birinin arxasınca qoyulması yetərli deyildir, bir-birinə vurulması zəruridir. Məgər cinayəti cəzaya vurmaq mümkündürmü? Hegel bunu mümkün hesab edir".

Kantın və Hegelin ölüm cəzasına əvəzçıxma tədbiri qismində haqq qazandırılan ideyaları Almaniyada əhaliyə qorxuyaratma və xəbərdaredici təsirin səmərəliliyini artırmaq üçün cinayət cəzasının və cinayət siyasətinin sərtləşdirilməsi istiqamətində çox ciddi şəkildə təsir göstərmişdir. Məhz bu ideyalar əsasında XIX əsrin məşhur alman hüquqşünası A.Feyerbaxın psixoloji qorxuyaratma nəzəriyyəsi meydana gəlmişdir. Bu təlimlərə əks olaraq, çoxsaylı məşhur hüquqşünas alimlər, filosoflar və yazıçılar ölüm cəzasının qeyri-əxlaqi xarakterinə işarə edərək, əvəzçıxma nəzəriyyəsini qisas ilə eyniləşdirərək, onun daxili mənasızlığını və sivilizasiyalı bəşəriyyətdə onun qeyri-mümkünlüyünü əsaslandırmağa cəhd etmişlər.

Həqiqətən, əvəzçıxma haqqında qisas kimi təsəvvür cəzanın qeyri-əxlaqiliyinin başa düşülməsini şərtləndirir. Buradan əvəzçıxmaya qarşı cəzanın əxlaqi baxışlarımıza uyğun olmamasında ifadə olunan etiraz yaranır. Əvəzçıxmada əxlaqiliyə konkret zidd olan nədir? Xristian mənəviyyatına istinad edilir: cəza xristianlıq dövrünə qədər təbii insani qisas hissindən yarandığından, ona xristian etikası ilə haqq qazandırıla bilməz. Həmçinin göstərilir ki, əvəzçıxan cəza qisas hissindən yaranır, məqsədi məhrumiyyət yetirməkdən ibarət olan əvəzçıxma sayılır. Cəmiyyət cəzanın ədalətliliyinə cəhd etdikdə belə, əvəzçıxmanın qeyri-əxlaqi xarakteri yenə də dəyişmir.

İ.Varqa dəfələrlə əvəzçıxmanın qeyri-əxlaqiliyini qeyd etmişdir və göstərmişdir ki, "intiqam ehtirası əxlaqa zidd olan affektdir və ictimai mühafizəyə xidmət edən hüquqi xeyir sayılmır; buna görə də, əzab verən əvəzçıxma cəzaları cinayətkara münasibətdə dövlətin nüfuzunun hüquqi hökmranlığının həyata keçirilməsi üçün qeyri-məqsədəuyğun və zərərli olduğu qədər də, qeyri-əxlaqidir". Əvəzçıxma ideyasını həm də, ona görə qeyri-əxlaqi sayırlar ki, bəzi müəlliflərə görə, o, heyvani qisas hissidir.

Məşhur rus hüquqşünas-filosofu V.S.Solovyova görə, əvəzçıxma nəzəriyyəsi digər məqsədlər naminə şəxsiyyətin hüquqlarının pozulmasıdır. Bu qeyd, təbii ki, ilk növbədə, İ.Kanta ünvanlanıb. O, "Xeyrin bəraəti"ndə göstərir ki, heç bir insan heç bir şəraitdə və heç bir səbəb üzündən hər hansı bir kənar məqsəd üçün yalnız bir vasitə kimi nəzərdən keçirilə bilməz; o, bütöv sinif və nəhayət, ümumi mənafe üçün alət və ya vasitə ola bilməz. Lakin bəlli olduğu kimi, Kantın əxlaqilik haqqında ümumi qanununun ikinci formulasında deyilir: "Heç zaman insana yalnız vasitə kimi yanaşma". Ölüm cəzasının qeyri-əxlaqiliyi nədən ibarətdir? - sualına V.S.Solovyov belə cavab verir: "Ölüm cəzası əxlaqiliyin ilkin əsaslarına zidd olmaqla yanaşı, hüququn özünün mövcudluğunun inkarıdır. Bilirik ki, bu varlıq iki əxlaqi mənafeyin şəxsi azadlıq və ümumi mənafeyin bərabərliyindən ibarətdir. Sonuncu mənafe (ümumi maraq) birinci mənafeyi (hər bir şəxsin azadlığını) yalnız məhdudlaşdıra bilər, lakin heç bir halda, onu tam ləğv edə bilməz, əks halda, hər bir bərabərlik pozulmuş olardı. Ona görə də, kimliyindən asılı olmayaraq, hər hansı bir şəxsə ümumi mənafeyin diktə etdiyi tədbirlər onun həyatdan məhrum edilməsi və ya ömürlük azadlıqdan məhrum edilməsi həddinə qədər çatmamalıdır". Müəllifə görə, cəzanın qeyri-əxlaqiliyi, həmçinin, onda ifadə olunur ki, cəmiyyət insanın ədliyyəsi simasında mütləq şəkildə yalnız ilahi görücülüyünü ifadə edən Tanrı məhkəməsinə məxsus olan hüququ mənimsəmişdir. V.S.Solovyov cəmiyyətin bu hərəkətini günah, qeyri-insani və eyib əməl kimi, deməli, insana köklü surətdə əxlaqi münasibətin prinsipial şəkildə inkar edilməsi kimi nəzərdən keçirmişdir.

Əvəzçıxmanın, ölüm cəzasının əxlaqi xarakterinin qəti və barışmaz əleyhdarlarından biri, məlum olduğu kimi, L.N.Tolstoy olmuşdur. O, İsus Xristosun "pisliyə qarşı çıxmayın" məlum çağırışı əsasında özünün "pisliyə zorakılıq ilə müqavimət göstərməmək" nəzəriyyəsini əsaslandırmışdır ki, bu da insan həyatının əzəldən şərtsiz müqəddəsliyini ifadə edir. Ona görə də, hər bir insanın həyatının müqəddəsliyinin tanınması hər bir əxlaqiliyin ilk və yeganə əsasıdır. Deməli, ölüm cəzası mahiyyət etibarilə qeyri-insani vs qeyri-əxlaqi vasitə sayılır. L.N.Tolstoyun müasiri, Ç.Darvinin davamçısı, məşhur təbiətşünas E.Hekkel yaşamaq uğrunda mübarizəsinin təbii qanununa müraciət etməklə, özünün ifadə etdiyi kimi "islaholunmaz cinayətkarlar və yaramazlar üçün" ölüm cəzasının ədalətliliyini, əxlaqiliyini və faydalılığını əsaslandırmağa cəhd etmişdir. L.Tolstoy buna etiraz edərək soruşmuşdur: "Əgər ağıldan kəmləri öldürmək faydalıdırsa, onda kimin zərərli olduğunu kim təyin edər?" Yazıçı "zorakılığın xeyrinə olan zorakılığa o halda haqq qazandırıla bilər ki, o, daha böyük zorakılığın qarşısını alır" arqumentini qəbul etməmişdir. O, hesab etmişdir ki, cinayətkarı edam edən zaman biz onun dəyişilməyəcəyinə, peşman olmayacağına və deməli, amansızlığın faydasızlığına yüz faiz əmin ola bilmərik.

Vaxtilə V.D.Nobokov da ölüm cəzasına təkcə hüquqi cəhətdən deyil, həmçinin və xüsusən əxlaqi nöqteyi-nəzərdən haqq qazandırmağın qeyri-mümkün olduğunu qeyd edərək göstərmişdir: "Köləlik, işgəncə kimi, cəzanı şikəst edən ölüm cəzası da, qanunvericilikdən təkcə nəzəri mühakimələr ilə deyil, heyrətlənmiş əxlaqi hissin susmayan, getdikcə artan və hamını əhatə edən predmeti ilə qovulacaqdır".

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## *Ötən il Azərbaycanda 751 uşaq övladlığa götürülüb*

Ötən il Azərbaycanda 751 uşaq övladlığa götürülüb. Bu da 2017-ci illə müqayisədə 14,4 faiz azdır. Əvvəlki ilə nisbətən övladlığa götürülən oğlanların sayı 13,7 faiz azalaraq 402 nəfər, qızların sayı 15,1 faiz azalaraq 349 nəfər olub. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib.

Məlumata görə, ötən il əvvəlki illə müqayisədə övladlığa götürülmüş 3 yaşa qədər olan uşaqların sayında 10,5 faiz, 3-5 yaşlı uşaqların sayında 19,2 faiz, 6-10 yaşlı uşaqların sayında 21,0 faiz, 11-17 yaşlı uşaqların sayında isə 11,9 faiz azalma müşahidə edilib. Həmin yaş qruplarında müvafiq olaraq 376, 139, 132 və 104 uşaq övladlığa götürülüb. Ötən il ərzində əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən 14 uşaq övladlığa götürülüb ki, onların da 4-ü qızdır.

## *Hind alimləri: Yulaf qaraciyəri alkoqolun fəsadlarından qoruyur*

Hindistanlı alimlər yulafın qaraciyəri alkoqolun fəsadlarından qoruyan təbii vasitə olduğunu təsdiqləyirlər. "MedikForum" xəbər verir ki, Dehli Universitetindən olan mütəxəssislər yulafın qaraciyərə münasibətdə sağlamlaşdırıcı xassələrini aşkar ediblər. Onlar müəyyən ediblər ki, yulaf sıyığından istifadə qaraciyəri alkoqol qəbulu nəticəsində əmələ gələn zədələrdən qoruya bilər.

Yulafın gepatoprotektor xüsusiyyəti laborator siçanlar üzərində aparılan eksperimentlərdə özünü göstərib. Gəmiricilərə 12 gün ərzində 125 mq və 250 mq miqdarında yulaf verilib. Daha sonra siçanlara qaraciyərin zədələnməsini süni surətdə törətmək məqsədilə 50 faizli etanol məhlulu dozası yeridilib.

Sonrakı müşahidələr göstərib ki, alkoqollaşdırma dövründən əvvəl yulaf qəbul edən siçanların qaraciyəri daha az zədələnib. Bununla yanaşı, mütəxəssislərin sözlərinə görə, qaraciyərin kəskin alkoqol təsirinin zədələrindən müdafiəsini təmin edən mexanizmlər hələ onlara aydın deyil. Qabaqcadan aparılan tədqiqatlar nümayiş etdirib ki, yulaf sıyığı qaraciyər tərəfindən ifraz olunan zəhərli maddələrin hopmasına maneçilik törədir, bu isə qaraciyərin fəaliyyətini sabitləşdirməyə imkan verir.

Layihənin müəllifləri yulafdan istifadənin ürək-damar xəstəlikləri, şəkərli diabet və mədə-bağırsaq traktı problemlərinin inkişaf riskinin azalmasına da kömək edəcəyini bildirirlər.

## *Tarkan 10 il sonra Rusiyada - 1,3 milyon alacaq*

Türkiyəli müğənni Tarkan 14 mayda Rusiyada konsert verəcək. Axşam.az xəbər verir ki, ifaçı 6 min 200 nəfərin qarşısına çıxacaq. Qeyd edək ki, o, sonuncu dəfə 2009-cu ildə Moskvada konsert vermişdi. O, Rusiyada verəcəyi 4 konsertdən 800 min dollar (1 milyon 357 min manat) gəlir əldə edəcək.

## *43 yaşlı model formada qalma sirrini açıqlayıb*

Məşhur model Tina Kandelaki istirahət üçün Dubaya yollanıb. Axşam.az xarici KİV-ə istinadən xəbər verir ki, 43 yaşlı Kandelaki məşhur Burc-Xəlifə, brend mağazalar və çimərlik qarşısındakı şəkillərini izləyiciləri ilə bölüşüb.

"Hər səhər idmanla məşğul oluram. Buna görə də səhər yeməyində yumurtadan tutmuş, yağlı ərzaqlara qədər hər şey yeməyə icazə verirəm. Balıq, yumurta yeyirəm. Ətdən çox az istifadə edirəm. Çalışıram paxlalı bitkilər yeyim. Uzun müddətdir şirniyyatdan, çörəkdən, kartofdan imtina etmişəm. Son on ildir ki, kolbasa çörək həsrətindəyəm" deyə, Tina formada qalma sirrini bölüşüb.

Model tez-tez spa salonlara getdiyini, kosmetoloqa müraciət etdiyini də söyləyib.


**ELAN**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Əliyeva Gülnarə Mübariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.




# Messi dünyada ən çox qazanan futbolçudur




İspaniyanın "Barselona" futbol klubunun hücumçusu Lionel Messi cari mövsümdə ən çox gəlir əldə edən futbolçu olub. AZƏRTAC "France Football" nəşrinə istinadla xəbər verir ki, argentinalı hücumçu cari mövsümdə 130 milyon avro qazanıb. İkinci pillədə portuqaliyalı hücumçu Kriştiano Ronaldo qərarlaşıb. "Yuventus"da forma geyən futbolçunun il ərzində qazancı 113 milyon avro təşkil edib. Fransanın "Paris Sen-Jermen" klubunun braziliyalı hücumçusu Neymar isə cari mövsümdə 91 milyon avro gəlirlə üçüncü olub. İlk beşliyi "Atletiko Madrid"in hücumçusu Antuan Qrizman (44 milyon avro) və "Real Madrid"in futbolçusu Qaret Beyl (40,2 milyon avro) tamamlayıblar.

Cari mövsümdə ən çox gəlir əldə edən baş məşqçi isə Dieqo Simeone olub. "Atletiko Madrid"in argentinalı baş məşqçisi 2018-2019-cu il mövsümündə 41 milyon avro gəlir əldə edib.

# Millimiz aerobika gimnastikası üzrə dünya kubokunda iştirak edib



Aerobika gimnastikası üzrə milli komandamızın üzvləri Kantanhede (Portuqaliya) şəhərində dünya kuboku yarışlarında iştirak ediblər. SİA-nın məlumatına görə, ölkəmizi qrup proqramında İmran İmranov, Vladimir Dolmatov, Mədinə Mustafayeva, Balaxanım Əhmədova və Nərminə Hüseynova təmsil ediblər. Gimnastlarımızın çıxışı hakimlər tərəfindən 18.161 xalla dəyərləndirilib və onlar kuboku altıncı pillədə başa vurublar. Fərdi çıxışlarda isə ən yaxşı nəticə V.Dolmatova aid olub. İdmançımız 20.300 xalla 9-cu yerdə qərarlaşıb.

# "Borussiya"nın futbolçusunun ayağı sınıb



Almaniyanın "Borussiya" klubu ciddi itki ilə üzləşib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Dortmund təmsilçisinin müdafiəçisi Əşrəf Hakiminin ayağı sınıb. "Volfsburq"la qarşılaşmada zədələnən mərakeşli futbolçu uzun müddət oynamaycaq. Onun cari mövsüm yaşıl meydanlara ayaq basmayacağı dəqiqdir. 21 yaşlı oyunçu gələn mövsüm meydanlara geri dönəcək. Qeyd edək ki, "Borussiya" Əşrəfi Madridin "Real" klubundan icarəyə götürüb.

# "Real" bu futbolçu üçün 30 milyon avro ödəyəcək



"Real" "Fluminense"nin hücumçusu Pedro Gilyerme ilə razılıq əldə edib. "Marca" nəşrinin yazdığına görə, Madrid təmsilçisi 21 yaşlı futbolçu üçün Braziliya klubuna 30 milyon avro ödəyəcək. Məlumatı gənc forvardın meneceri Marsio Cunyo da təsdiqləyib. Qeyd edək ki, bir müddətdir zədədən əziyyət çəkən Gilyerme ötən il "Fluminense"nin heyətində keçirdiyi 40 oyunda 19 qol vurub, 2 məhsuldar ötürmə etmişdi.

# Avropa kuboku yarışlarında Azərbaycanı 5 qadın cüdoçu təmsil edəcək




Aprelin 6-7-də İtaliyanın Liqnano şəhərində keçiriləcək gənclər arasında cüdo üzrə Avropa kuboku yarışlarında Azərbaycanı qadınların yarışında üç çəki dərəcəsində beş idmançı təmsil edəcək. Beynəlxalq Cüdo Federasiyasının saytında yer alan məlumata görə, qitə yarışlarında cüdoçularımız Şəfəq Həmidova, Ramilə Əliyeva (48 kq), Nərgiz Hacıyeva (57 kq), Diana Şoranova və Südabə Ağayeva (63 kq) güclərini sınayacaqlar. Qitə kubokunda, ümumilikdə 35 ölkədən 600-dən çox idmançı mübarizə aparacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**